RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 126 (10146) 18 iyul 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Diplomatik əlaqələr yüksək səviyyədədir

**Prezident İlham Əliyev Braziliyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 17-də Braziliya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bernard Jorj Leopold de Qarsia Klinqli qəbul edib.

2

## Azərbaycanla Kamboca dost ölkələrdir

**Prezident İlham Əliyev Kambocanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 17-də Kamboca Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sok Çeanı qəbul edib.

2

## Ölkəmizlə Oman arasında müxtəlif sahələr üzrə əməkdaşlıq nəzərdən keçirilib

**Prezident İlham Əliyev Omanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 17-də Oman Sultanlığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Saif Rəşid Saif Al Cahvarini qəbul edib.

2

## Azərbaycanla İrlandiya arasında əməkdaşlığı möhkəmləndirmək üçün geniş imkanlar var

**Prezident İlham Əliyev İrlandiyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 17-də İrlandiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kler Brosnanı qəbul edib.

2

## Sarsılmaz birliyi təmin edən siyasət

Şuşanın evsahibliyi etdiyi bu forum qlobal media nümayəndələrini bir araya gətirməklə yanaşı, işğaldan azad edilmiş ərazilərimizin sürətli intibahının, bərpa-quruculuq işlərinin dünyaya təqdimatı üçün unikal imkandır. Müxtəlif ölkələrdən gələn media təmsilçiləri və siyasi ekspertlər Şuşada aparılan genişmiqyaslı quruculuq işləri ilə tanış olaraq Azərbaycanın sülh və inkişafına yerində şahidlik etdilər. Bu baxımdan Şuşa Azərbaycanın mədəniyyət paytaxtı olmaqla yanaşı, ölkəmizin zəfərini və quruculuğunu




dünyaya bəyan edən əsas mərkəzlərdən birinə çevrilib.

5

# Şuşa Forumu: müdrikliyin və qətiyyətin təntənəsi



Böyük nailiyyətlər qazanmış ölkələrin təcrübəsinin öyrənilməsi qədim tarixə malik ənənə sayılır. Qürurverici haldır ki, müasir dövrdə təcrübəsi öyrənilən və təbliğ edilən dövlətlər arasında Azərbaycanın adı getdikcə daha tez-tez çəkilməkdədir. Müşahidə edilən odur ki, ölkəmizin çoxşaxəliliyi ilə seçilən uğurları hər bir konkret dövlət üçün faydalı ola bilir və buna görə də Azərbaycanın cazibədarlığı artıq sanki beynəlxalq brendə çevrilib.

Yaşadığımız dövr bir sıra uzun sürən qanlı münaqişələr və müharibələrlə müşayiət olunur. Bu kontekstdə 2020-ci ildə qazandığımız əzəmətli Qələbənin və 2023-cü ildə separatizm yuvasının birdəfəlik ləğv edilməsinin tarixi əhəmiyyəti yalnız dünya hərb tarixinin "qızıl fondu"na daxil olması ilə yekunlaşmır. Vətən müharibəsi nəinki Qarabağ və Şərqi Zəngəzuru işğaldan azad etdi, Azərbaycanın tam ərazi suverenliyini bərpa etdi, habelə böyük beynəlxalq siyasi hadisəyə çevrildi. Söhbət müasir münaqişələri uğurla, qısa vaxtda aradan qaldırmaq bacarığının və nümunəsinin dünya birliyinə təqdim edilməsindən gedir. Beynəlxalq ekspertlərlə yanaşı, münaqişə ağrılarını yaşamağa məhkum olmuş ölkələrin rəhbərlərinin Azərbaycan təcrübəsinə dərin marağını anlamaq o qədər də çətin deyil. Ədalət naminə vurğulanmalıdır ki, ölkəmiz qazandığı zəngin təcrübəni həvəslə bölüşür və bununla da dünyada sülhün və anlaşmanın bərqərar olmasına mühüm töhfə verir.

Onu da ayrıca qeyd etməkdə fayda var ki, Azərbaycanın bölüşdüyü təcrübə tək Qələbə nümunəsi ilə yekunlaşmır. Sıçrayışlı iqtisadi yüksəliş, müasirləşmə, innovativ inkişaf yolları, ənənəvi enerji ilə yanaşı, bərpaolunan enerji növlərinin istifadə edilməsi kimi problemin uğurla uzlaşdırılması və sair Azərbaycan təcrübəsinin zənginliyindən xəbər verən reallıqlardır.

30 il işğala məruz qalan Azərbaycanın möhtəşəm qələbəsindən dərhal sonra regionda sülh və əməkdaşlıq çağırışlarının onun xarici siyasət gündəliyinin əsas qayəsinə çevrilməsi ölkəmizin beynəlxalq təcrübəsinin cazibədarlığını xüsusilə artırır. Uzun sürən münaqişə və müharibə dövrünü yaşayan ölkələrin əməkdaşlıq gündəliyini bərpa etməsinə onilliklər lazım olduğu halda Azərbaycanın ən qısa vaxtda əməkdaşlıq çağırışlarına sadiq qalması özlüyündə beynəlxalq həyatın unikal hadisəsidir. Təbii ki, Prezident İlham Əliyev siyasətinin ən parlaq xüsusiyyətləri sırasında yer tutan sadalanan məqamlar çoxları üçün faydalı və cəlbedici olduğundan onların Şuşa Qlobal Media Forumunda xüsusi diqqət mərkəzində olması tamamilə təbii və anlaşılandır.

Diqqətçəkən digər Azərbaycan təcrübəsi sırasında regionda beynəlxalq kommunikasiya layihələri qeyd oluna bilər. Ölkəmizin qeyri-adi coğrafi imkanlarının qüdrətli geopolitik amilə çevrilməsi İlham Əliyevin diplomatik konsepsiyasının ayrıca tərkib hissəsini təşkil edir, ciddi iqtisadi dividendlər vəd edir və buna görə də öz növbəsində xüsusi cazibə amilinə çevrilir.

Beləliklə, Azərbaycan və onun tarixi əhəmiyyət kəsb edən təcrübəsi ilə yanaşı, Prezident İlham Əliyevin aydın müşahidə olunan zəngin təcrübəsi beynəlxalq medianın diqqətindən kənarda qalmır. Tanınmış jurnalistlərin, ekspertlərin, qlobal media nəhənglərinin aparıcı nümayəndələrinin yolunun tez-tez Azərbaycana düşməsi ölkəmizə və onun zəngin təcrübəsinə qlobal marağın ibrətamiz nümunəsidir. Bu, eyni zamanda yenidən qurulan Qarabağ və Şərqi Zəngəzurun timsalında Azərbaycanın imkan və bacarıqlarının, Prezident İlham Əliyevin idarəçilik baxışlarının genişliyinin parlaq nümayişidir.

4

## Qurtuluşun başlanğıcı

Naxçıvana qayıdışdan cəmi iki ay sonra keçirilən parlament seçkilərində Heydər Əliyevin həm Azərbaycan Respublikasının, həm də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanlarına deputat seçilməsi xalqın ona olan böyük etimadının növbəti təsdiqi oldu. İnsanlar anlayırdılar ki, ölkənin düşdüyü ağır vəziyyətdən çıxış yolu yalnız zəngin dövlətçilik təcrübəsinə, siyasi iradəyə və uzaqgörənliyə malik liderin rəhbərliyi ilə mümkündür.

1990-cı il noyabrın 17-də Naxçıvan Ali Məclisinin ilk sessiyası Azərbaycanın müasir dövlətçilik tarixində yeni mərhələnin əsasını qoydu. Heydər Əliyevin sədrliyi ilə keçirilən həmin tarixi iclasda qəbul edilən qərarlar müstəqil Azərbaycan dövlətinin ideoloji və hüquqi təməllərinin formalaşmasında mühüm rol oynadı. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarıldı, Ali Sovet Ali Məclis adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvanın dövlət bayrağı kimi qəbul edildi və ölkəmiz üçün dövlət bayrağı elan olunması barədə Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırıldı.

SSRİ-nin hələ mövcud olduğu bir dövrdə belə qərarların qəbul edilməsi siyasi iradə və cəsarətin ifadəsi idi. Bu addımlar bir daha göstərirdi ki, Heydər Əliyev yalnız hadisələrin gedişini izləyən siyasətçi deyil, eyni zamanda müstəqil Azərbaycanın gələcəyini müəyyənləşdirən dövlət xadimidir.

6

## Azərbaycan-ABŞ münasibətləri: Siyasi bəyanatlardan praktik əməkdaşlığa



Prezident İlham Əliyevin ötən ilin avqustunda ABŞ-yə səfəri münasibətlərdə yeni səhifə açdı. Bu il fevralın 10-da Bakıda imzalanan "Strateji Tərəfdaşlıq Xartiyası" isə yeni mərhələnin məntiqi nəticəsi hesab oluna bilər. Sənədin imzalanmasından ötən cəmi bir neçə ay müddətində münasibətlər artıq siyasi bəyanatlardan praktik əməkdaşlıq mərhələsinə keçib. Bu gün Vaşinqton və Bakı arasında münasibətlər təhlükəsizlik, iqtisadiyyat, enerji və yeni texnologiyaları əhatə edən daha geniş strateji tərəfdaşlıq formatında inkişaf edir.

Vaşinqtonda hesab edirlər ki, bunun əsas səbəblərindən biri Azərbaycanın regionda artan strateji əhəmiyyətidir.

5

# Diplomatik əlaqələr yüksək səviyyədədir

## Prezident İlham Əliyev Braziliyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 17-də Braziliya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bernard Jorj Leopold de Qarsia Klinqli qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin inkişafından məmnunluğunu bildirərək, siyasi, iqtisadi-ticari, sərmayələr, turizm sahələrində əməkdaşlığın genişləndirilməsinin və müxtəlif səviyyələrdə təmasların artırılmasının əhəmiyyətini vurğuladı.

Prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzuladı, onun fəaliyyətinin Azərbaycan-Braziliya əlaqələrinin inkişafına töhfə verəcəyinə ümidvarlığını bildirdi.

Ölkəmizə səfir təyin olunmasından və dövlətimizin başçısı ilə görüşdən şərəf hissi duyduğunu deyən Bernard Jorj Leopold de Qarsia Klinql diplomatik əlaqələrimizin yüksək səviyyədə olduğunu qeyd etdi.

Səfir Azərbaycanın və Braziliyanın COP sahəsində də uğurlu əməkdaşlıq etdiklərini vurğuladı.

Bernard Jorj Leopold de Qarsia Klinql səfir kimi ikitərəfli münasibətlərimizin genişləndirilməsinə töhfə verəcəyini dedi.

Görüşdə Azərbaycanla Braziliya arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın uğurla aparıldığı qeyd edildi, hər iki dövlətin çoxtərəfli diplomatiyanı dəstəklədiyi xüsusilə vurğulandı.

# Azərbaycanla Kamboca dost ölkələrdir

## Prezident İlham Əliyev Kambocanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 17-də Kamboca Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sok Çeanı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ölkəmizin Kamboca ilə ikitərəfli münasibətlərə və qarşılıqlı dəstəyə, həmçinin hökumətlərimiz və hakim partiyalar səviyyələrində təmaslara böyük önəm verdiyini deyərək, yalnız siyasi deyil, eyni zamanda iqtisadiyyat, investisiyalar sahələrində əlaqələrimizi daha yüksək səviyyəyə çatdırmağın önəminə toxundu, Azərbaycanla Kambocanın dost ölkələr olduğunu bildirdi.

Qəbula görə dövlətimizin başçısına təşəkkürünü ifadə edən səfir Kambocanın Kralı Norodom Sihamoninin və Baş naziri Hun Manetin salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Kambocanın Kralına və Baş nazirinə çatdırmağı xahiş etdi.

Səfir Kambocanın Azərbaycanla dost münasibətlərə yüksək dəyər verdiyini vurğuladı. O, ölkələrimizin coğrafi baxımdan bir-birindən uzaqda yerləşməsinə baxmayaraq, Azərbaycan və Kambocanın dayanıqlı inkişaf, beynəlxalq sülh və sabitlik məsələlərində eyni mövqedən çıxış etdiklərini dedi.

İkitərəfli əməkdaşlığın möhkəmləndirilməsi üçün yaxşı potensialın olduğunu qeyd edən səfir ticarət, turizm, mədəniyyət, xalqlararası təmaslar sahələrində münasibətlərimizin genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini vurğuladı.

Görüşdə Azərbaycanın və Kambocanın beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığından məmnunluq bildirildi.

Kambocanın Baş nazirinin ölkəmizə gözlənilən səfərinin ikitərəfli əlaqələrimizin daha da inkişafı üçün yaxşı imkan yaradacağına ümidvarlıq ifadə olundu.

# Ölkəmizlə Oman arasında müxtəlif sahələr üzrə əməkdaşlıq nəzərdən keçirilib

## Prezident İlham Əliyev Omanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 17-də Oman Sultanlığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Saif Raşid Saif Al Cahvarini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı dost ölkələrimiz arasında münasibətlərin uğurlu inkişafından məmnunluğunu bildirərək, bir çox sahədə, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığın həyata keçirildiyini dedi və tərəfdaşlığın möhkəmləndirilməsi üçün yaxşı imkanların olduğunu vurğuladı.

Səfirə fəaliyyətində uğurlar arzulayan Prezident İlham Əliyev onun ikitərəfli gündəliyin müxtəlif sahələri üzrə əməkdaşlığın dərinləşdirilməsinə töhfə verəcəyinə ümidvarlığını bildirdi.

Azərbaycana səfir təyin olunmasından məmnunluğunu ifadə edən Saif Raşid Saif Al Cahvari Oman Sultanı Heytəm bin Tariq Al Səidin salamlarını dövlətimizin başçısına çatdıraraq dedi ki, Oman Sultanı Prezident İlham Əliyevə möhkəm cansağlığı, ölkəmizə isə yeni uğurlar arzulayır.

Prezident İlham Əliyev xoş sözlərə və salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Oman Sultanına çatdırmağı xahiş etdi.

Səfir bu günlərdə diplomatik münasibətlərimizin 35 illiyinin qeyd olunmasının önəmini vurğuladı.

O, Leyla Əliyevanın bu ilin əvvəlində Omana səfərini xatırladaraq, həmin səfər zamanı keçirilmiş görüşlərin və aparılmış müzakirələrin əhəmiyyətinə toxundu, bütün bunların ikitərəfli əlaqələrimizin inkişafına mühüm töhfə verdiyini dedi.

Söhbət zamanı Azərbaycanla Oman arasında turizm sahəsində əməkdaşlıq qeyd edildi, birgə investisiya fondunun yaradıldığı bildirildi və gələcəkdə onun maliyyə imkanlarının artırılması perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# Azərbaycanla İrlandiya arasında əməkdaşlığı möhkəmləndirmək üçün geniş imkanlar var

## Prezident İlham Əliyev İrlandiyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 17-də İrlandiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kler Brosnanı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında münasibətləri genişləndirməyin əhəmiyyətini qeyd edərək, siyasi sahə ilə yanaşı, investisiyalar və digər potensial istiqamətlər üzrə əməkdaşlığı möhkəmləndirmək üçün imkanlara toxundu. Bakıda olmaqdan şərəf hissi keçirdiyini deyən səfir paytaxtımızın gözəlliyinin və burada tarixi ənənələrlə müasirliyin vəhdətinin onlarda zəngin təəssüratlar yaratdığını bildirdi, Azərbaycanın gözəl ölkə olduğunu vurğuladı.

Səfir Azərbaycanla Ermənistan arasında sülh gündəliyi ilə əlaqədar əldə olunmuş nailiyyətlər münasibətilə dövlətimizin başçısını bir daha təbrik etdi.

Kler Brosnan hazırda İrlandiyanın Avropa İttifaqına sədrlik funksiyasını yerinə yetirdiyini deyərək, ölkəmizlə bu qurum arasında əlaqələrin inkişafını dəstəklədiyini bildirdi. O, həmçinin İrlandiyanın "Avropa Siyasi Birliyi"nin növbəti Zirvə görüşünə evsahibliyi edəcəyini dedi.

Kler Brosnan COP29-da iştirakını xatırlayaraq, Azərbaycanın bu tədbirə uğurla evsahibliyi etdiyini, onun yüksək səviyyədə təşkil olunduğunu və COP29-da yaxşı nəticələrin əldə edildiyini vurğuladı.

Dövlətimizin başçısı da öz növbəsində COP29 çərçivəsində qlobal "yaşıl gündəlik"lə bağlı Azərbaycan tərəfindən bir sıra təşəbbüslərin irəli sürüldüyü deyərək, ölkəmizdə bu istiqamətdə görülən işlərə toxundu.

Söhbət zamanı Azərbaycanla İrlandiya arasında təhsil, yüksək texnologiyalar sahələrində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

# "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci və 25-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 779 (Cild I); 2024, № 4, maddə 365, № 6 (I kitab), maddə 630, № 8, maddə 933, № 12 (II kitab), maddə 1349; 2025, № 11, maddə 1009, № 12 (I kitab), maddə 1118; 2026, № 1, maddə 11, № 2, maddə 111) 20.0.35-ci maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 20.0.36-cı maddə əlavə edilsin:

"20.0.36. xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş Ələt azad iqtisadi zonasında Azad Zona hüquqi şəxsi tərəfindən tamamilə istehsal edilmiş və ya emala məruzqalma meyarlarına uyğun olaraq kifayət qədər emal olunmuş Azərbaycan Respublikası mənşəli malların həcminin azı 50 (əlli) faizinin ölkə hüdudlarından kənara ixracı şərtilə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada Ələt azad iqtisadi zonasından əsas iqtisadiyyata gətirilməsi - malı istehsal və ya emal edən Azad Zona hüquqi şəxsinin təsis olunduğu tarixdən 15 il müddətində.".

**Maddə 2.** Bu Qanun 2027-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyul 2026-cı il*

# "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 iyul tarixli 441-VIIQD nömrəli Qanununun tətbiqi və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 4 iyul tarixli 936 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 iyul tarixli 441-VIIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun 20.0.36-cı maddəsində hər iki halda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 20.0.36-cı maddəsində hər iki halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. gömrük rüsumundan azad olunmaqla Ələt azad iqtisadi zonasından əsas iqtisadiyyata gətirilən Azad zonada onun hüquqi şəxsi tərəfindən tamamilə istehsal edilmiş və ya emala məruz qalma meyarlarına uyğun olaraq kifayət qədər emal olunmuş Azərbaycan Respublikası mənşəli malların xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə siyahısını və həmin malların Azad zonadan əsas iqtisadiyyata gətirilməsi qaydasını üç ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 iyul tarixli 441-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 4 iyul tarixli 936 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 801 (Cild I); 2024, № 6 (I kitab), maddə 661, № 12 (II kitab), maddə 1371; 2025, № 12 (I kitab), maddə 1154; 2026, № 2, maddə 125, Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 iyun tarixli 689 nömrəli Fərmanı) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.1-1-ci bənddə "və 20.0.35-ci" sözləri ", 20.0.35-ci və 20.0.36-cı (hər iki halda)" sözləri ilə əvəz edilsin;

3.2. 3.2-1-ci bənddə "və 20.0.30-cu (birinci halda)" sözləri ", 20.0.30-cu (birinci halda) və 20.0.36-cı (hər iki halda)" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyul 2026-cı il*

# "Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında", "İctimai iştirakçılıq haqqında" və "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 92-ci maddəsini, 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini və 95-ci maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 107 (Cild I); 2024, № 11, maddə 1188; 2025, № 12 (I kitab), maddə 1120) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"nin 15-ci maddəsinin dördüncü-on üçüncü hissələri müvafiq olaraq beşinci-on dördüncü hissələr hesab edilsin və aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

"İctimai dinləmə və ya ictimai müzakirə "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Elektron Hökumət İnformasiya Sistemi üzərindən də təşkil edilir. Bu zaman ictimai dinləmənin və ya ictimai müzakirənin keçirilmə tarixi barədə məlumatlandırılma həmin informasiya sistemi vasitəsilə təmin edilir.".

**Maddə 2.** "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 1, maddə 1 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 6.3-cü maddənin birinci cümləsində "öz internet səhifəsi" sözləri "özünün rəsmi internet informasiya ehtiyatı, Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra - EHİS)" sözləri ilə əvəz edilsin;

2.2. 14.2-ci maddədə "səhifəsində" sözü "informasiya ehtiyatında" sözləri ilə əvəz edilsin və həmin maddəyə "mediada" sözündən sonra ", habelə EHİS-də" sözləri əlavə edilsin;

2.3. 15.1-ci və 15.2-ci maddələrə "təqdim olunur" sözlərindən sonra "(o cümlədən EHİS vasitəsilə)" sözləri əlavə edilsin;

2.4. 16.1-ci maddədə "öz internet səhifəsində" sözləri "özünün rəsmi internet informasiya ehtiyatında" sözləri ilə əvəz edilsin və həmin maddəyə "mediada" sözündən sonra ", habelə EHİS-də" sözləri əlavə edilsin;

2.5. 17-ci maddə üzrə:

2.5.1. 17.1-ci maddəyə "verə bilməsi" sözlərindən sonra "(o cümlədən EHİS vasitəsilə)" sözləri əlavə edilsin;

2.5.2. 17.2-ci maddəyə "dərc edilir" sözlərindən sonra "(o cümlədən EHİS vasitəsilə)" sözləri əlavə edilsin;

2.6. 18-ci maddə üzrə:

2.6.1. 18.2.1-ci maddədə "internet səhifəsində" sözləri "rəsmi internet informasiya ehtiyatında" sözləri ilə əvəz edilsin;

2.6.2. 18.2.2-ci və 18.2.3-cü maddələrdə "internet səhifəsinin" sözləri "rəsmi internet informasiya ehtiyatının" sözləri ilə əvəz edilsin və həmin maddələrə "bölməsində" sözündən sonra "və EHİS-də" sözləri əlavə edilsin;

2.6.3. 18.2.4-cü maddəyə "məlumatlandırır" sözündən sonra "(o cümlədən EHİS vasitəsilə)" sözləri əlavə edilsin;

2.6.4. 18.2.5-ci maddəyə "dərc edir" sözlərindən sonra "(o cümlədən EHİS vasitəsilə)" sözləri əlavə edilsin;

2.7. 19-cu maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Hüquqi aktların layihələrinə dair ictimai dinləmənin və ictimai müzakirənin elektron qaydada təşkili eyni zamanda EHİS vasitəsilə təmin edilir.".

**Maddə 3.** "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 11, maddə 1695 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 5-ci maddə üzrə;

3.1.1. aşağıdakı məzmunda 5.2-1-ci və 5.2-2-ci maddələr əlavə edilsin:

"5.2-1. Bu Qanunun 7-1.1-ci maddəsində qeyd edilən halda, bu Qanunun 3-cü maddəsi ilə müəyyən edilmiş tələblərə uyğun olaraq tərtib olunmuş layihə Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra - EHİS) üzərindən elektron sənəd formasında təqdim edilir.

5.2-2. Təşəbbüs qrupunun və təklif olunan layihənin qeydiyyata alınması barədə ərizəyə layihənin dəstəklənməsi üçün vətəndaşların imzalarının hansı formada toplanılacağı (kağız daşıyıcıda və ya elektron formada) barədə məlumat əlavə edilir. Hər iki formanın eyni qanunvericilik təşəbbüsü layihəsi üzrə paralel və ya ardıcıl şəkildə tətbiqinə yol verilmir.";

3.1.2. 5.6-cı maddəyə "müddətində" sözündən sonra ", bu Qanunun 6.1-ci və 7-1-ci maddələrində qeyd edilənlər nəzərə alınmaqla," sözləri əlavə edilsin;

3.2. 6-cı maddə üzrə:

3.2.1. 6.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"6.1. Milli Məclisin müzakirəsinə təqdim edilməsi təklif olunan layihənin dəstəklənməsi üçün vətəndaşların imzalarının toplanması həmin layihənin qeydiyyata alındığı gündən iki ay ərzində təşəbbüs qrupunun üzvləri tərəfindən, bu Qanunun 7-1.1-ci maddəsində qeyd edilən halda isə EHİS üzərindən həyata keçirilir.";

3.2.2. aşağıdakı məzmunda 6.3-1-ci maddə əlavə edilsin:

"6.3-1. Bu Qanunun 7-1.1-ci maddəsində qeyd edilən halda layihənin dəstəklənməsi üçün vətəndaşların imzalarının toplanılması onların EHİS-də olan elektron kabinetləri vasitəsilə həyata keçirilir. Bu zaman vətəndaşlar dəstəkləmək üçün imza toplanması davam etdirilən layihəni seçərək təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə imzalayırlar. Bu halda imza vərəqələrinin doldurulması və vətəndaşların imzalarının toplanılmasının nəticələri haqqında protokol tərtibi tələb olunmur və müvafiq məlumatlar EHİS üzərindən təqdim olunur.";

3.2.3. 6.4-cü maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu Qanunun 7-1.1-ci maddəsində qeyd edilən halda layihənin tam mətninin və onun məzmununun izahının təqdim edilməsi, eləcə də vətəndaşa layihə ilə tanış olmaq imkanının yaradılması EHİS vasitəsilə təmin edilir.";

3.3. 7-ci maddə üzrə:

3.3.1. 7.1-ci maddənin birinci cümləsinə "tərəfindən" sözündən sonra ", bu Qanunun 7-1-ci maddəsində qeyd edilən halda isə layihənin dəstəklənməsi ilə bağlı imzalar barədə məlumatlar EHİS üzərindən" sözləri əlavə edilsin;

3.3.2. 7.2-ci maddəyə "Mərkəzi" sözündən əvvəl "Bu Qanunun 7-1-ci maddəsində qeyd edilən hal nəzərə alınmaqla," sözləri əlavə edilsin;

3.3.3. 7.4.2-ci və 7.7.2-ci maddələrə "Qanunun" sözündən sonra "6-3.1-ci maddəsində qeyd edilən hal nəzərə alınmaqla, bu Qanunun" sözləri əlavə edilsin;

3.3.4. 7.7.1-ci maddəyə "Qanunun" sözündən sonra "5.2-2-ci," sözləri əlavə edilsin;

3.4. aşağıdakı məzmunda 7-1-ci maddə əlavə edilsin:

**"Maddə 7-1. Vətəndaşların qanunvericilik təşəbbüsü hüququndan istifadəsinin elektron qaydada təşkili**

7-1.1. Təşəbbüs qrupunun və təklif olunan layihənin qeydiyyata alınması üçün təşəbbüs qrupunun sədri tərəfindən bu Qanunun 5.1-ci və 5.2-ci maddələrində qeyd edilən sənədlərin və məlumatların Mərkəzi Seçki Komissiyasına təqdim edilməsi, habelə layihənin dəstəklənməsi üçün vətəndaşların imzalarının toplanılması qanunvericilik təşəbbüsü hüququndan istifadə, dövlət informasiya sistemlərinin və ehtiyatlarının fəaliyyəti, eləcə də elektron imza və elektron sənəd sahələrində yaranan münasibətləri tənzimləyən Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərinə uyğun olaraq EHİS üzərindən həyata keçirilə bilər.

7-1.2. Bu Qanunun 5.6-cı maddəsində qeyd edilən sənədlər, habelə bu Qanunun 7.2-ci, 7.6-cı və 7.10-cu maddələrində qeyd edilən yazılı arayış, protokol və qərarlar Mərkəzi Seçki Komissiyası tərəfindən qanunvericilik təşəbbüsü hüququndan istifadə, dövlət informasiya sistemlərinin və ehtiyatlarının fəaliyyəti, eləcə də elektron imza və elektron sənəd sahələrində yaranan münasibətləri tənzimləyən Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərinə uyğun olaraq təşəbbüs qrupu sədrinin EHİS-dəki elektron kabinetində yerləşdirilir və təşəbbüs qrupunun sədri bu barədə elektron poçt və ya SMS vasitəsilə məlumatlandırılır.".

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 7 iyul 2026-cı il*

# Nazirlər Kabinetində əhalinin siyahıyaalınması ilə bağlı məsələlər müzakirə olunub

**İyulun 17-də Baş nazir Əli Əsədovun sədrliyi ilə Nazirlər Kabinetində 2029-cu ildə Azərbaycanda əhalinin siyahıyaalınmasının keçirilməsi ilə bağlı məsələlərə həsr olunmuş geniş iclas keçirilib.**



AZƏRTAC xəbər verir ki, iclasda Prezident İlham Əliyevin "2029-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında" 2026-cı il 7 iyul tarixli fərmanından irəli gələn vəzifələrin icrası, əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı görüləcək işlər müzakirə olunub.

İclası giriş sözü ilə açan Baş nazir Ə.Əsədov əhali haqqında ən dolğun məlumat mənbəyi olan siyahıyaalmanın demoqrafik proseslərin obyektiv qiymətləndirilməsi və ölkənin sosial-iqtisadi inkişafının planlaşdırılması baxımından önəmini vurğulayıb. Qeyd edilib ki, 2029-cu ildə keçiriləcək əhalinin növbəti siyahıyaalınması xüsusi tarixi əhəmiyyət kəsb edəcək.

"Çünki bu, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi ilə Şanlı Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı tarixi Zəfər və ölkəmizin suverenliyinin tam bərpa olunması nəticəsində müstəqillik tariximizdə ilk dəfə olaraq Azərbaycanın bütün suveren ərazisini tam şəkildə əhatə edəcək ümumrespublika əhalinin siyahıyaalınması olacaq", - deyə Ə.Əsədov əlavə edib.

Bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin fərmanının icrasının təmin edilməsi məqsədilə Nazirlər Kabineti tərəfindən müvafiq Tədbirlər Planı təsdiq ediləcək, əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, idarə, müəssisə və təşkilatların fəaliyyətinin əlaqələndirilməsi məqsədilə Baş nazirin müavininin rəhbərliyi ilə Əhalinin Siyahıyaalınmasına Yardım üzrə Mərkəzi Komissiya yaradılacaq. Birləşmiş Millətlər Təşkilatının müvafiq tələb və tövsiyələrinə, həmçinin milli prioritetlərə əsaslanaraq təşkil ediləcək əhalinin siyahıyaalınmasının ilk dəfə rəqəmsal texnologiyalar, inzibati və geoməkan məlumatlarından istifadə edilməklə keçirilməsinin nəzərdə tutulduğu vurğulanıb.

Daha sonra Dövlət Statistika Komitəsinin sədri Azər Mursaqulov əhalinin siyahıyaalınmasına hazırlıq məqsədilə görüləcək işlər barədə məruzə ilə çıxış edib.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev aidiyyəti dövlət orqanlarının (qurumlarının) informasiya ehtiyatlarında və sistemlərində olan müvafiq məlumatların Dövlət Statistika Komitəsinin məlumat bazasına inteqrasiyası istiqamətində görüləcək işlər barədə məruzə edib.

İclasa yekun vuran Baş nazir Ə.Əsədov aidiyyəti dövlət qurumlarına Prezidentin fərmanından irəli gələn tapşırıqların, o cümlədən əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi üzrə zəruri tədbirlərin vaxtında, keyfiyyətlə və mütəşəkkil yerinə yetirilməsi barədə müvafiq tapşırıqlar verib.

# Altıncı "Yüksəliş" müsabiqəsinin final mərhələsinə start verilib



**İyulun 17-də Bakı Ekspo Mərkəzində altıncı "Yüksəliş" müsabiqəsinin final mərhələsinin açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri, "Yüksəliş" müsabiqəsinin Təşkilat Komitəsinin sədri Fərəh Əliyeva, səhiyyə naziri Teymur Musayev, insan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, gənclər və idman nazirinin müavini, "Yüksəliş" müsabiqəsinin işçi qrupunun rəhbəri Fərhad Hacıyev, müsabiqənin əvvəlki illərinin qalibləri və finalçılar iştirak ediblər.

Bu il keçirilən müsabiqənin konsepti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə elan olunmuş "Şəhərsalma və Memarlıq İli"nə həsr edilib.

Mərasimdə vurğulanıb ki, Azərbaycanın yüksəlişinin memarları - Ümummilli Lider Heydər Əliyev və Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirilən strateji inkişaf yolu ölkəmizin müasir və qüdrətli dövlətə çevrilməsinin əsasını təşkil edir. Ulu Öndər Heydər Əliyevin formalaşdırdığı möhkəm dövlətçilik təməlləri Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilərək ölkənin hərtərəfli inkişafına, şəhər və rayonların müasir simasının formalaşdırılmasına, milli memarlıq irsinin qorunmasına və gələcək nəsillər üçün dayanıqlı yaşayış mühitinin yaradılmasına xidmət edir.

Finalçılar mərhələ ərzində "İdarəçi rollar modeli"nə uyğun hazırlanmış müxtəlif situasiya və tapşırıqları yerinə yetirməklə öz biliklərini, liderlik keyfiyyətlərini və idarəetmə bacarıqlarını nümayiş etdirəcəklər.

Final mərhələsinə hazırlıq çərçivəsində qiymətləndirici ekspertlər üçün üçgünlük xüsusi təlim proqramı təşkil olunub. Təlimlərə ümumilikdə 58 ekspert cəlb edilib.

Üç gün davam edəcək final mərhələsində müsabiqənin əvvəlki dörd mərhələsini uğurla başa vuran 130 iştirakçı mübarizə aparır. Final mərhələsi iyulun 19-da başa çatacaq və ölkənin yüksək idarəçilik potensialına malik növbəti istedadlı kadrları arasından altıncı "Yüksəliş" müsabiqəsinin qalibləri müəyyənləşdiriləcək.

Bununla da altıncı "Yüksəliş" müsabiqəsinə yekun vurulacaq.

Xatırladaq ki, "Yüksəliş" müsabiqəsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 26 iyul tarixli sərəncamına əsasən təsis olunub. Müsabiqənin qalibləri idarəçi rəhbərlər tərəfindən birillik fərdi inkişaf proqramı çərçivəsində mentorluq dəstəyi almaq və özünüinkişaf məqsədilə 20 min manat məbləğində pul mükafatı əldə etmək imkanı qazanırlar.

Altıncı "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı Azərbaycan Prezidenti 2025-ci il dekabrın 10-da sərəncam imzalayıb.

# Azərbaycanın və Rusiyanın XİN başçıları ikitərəfli münasibətləri və Cənubi Qafqazda vəziyyəti müzakirə ediblər

**İyulun 17-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində xarici işlər naziri Sergey Lavrov ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan-Rusiya münasibətlərinin siyasi, iqtisadi-ticarət, nəqliyyat, humanitar, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Nazirlər iki ölkə arasında mövcud olan müttəfiqlik münasibətlərinin qarşılıqlı hörmət və milli maraqların nəzərə alınması əsasında inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıblar. Bu çərçivədə ali və yüksək səviyyədə əldə olunmuş razılaşmaların icra vəziyyəti nəzərdən keçirilib.

Ticarət-iqtisadi əməkdaşlığın inkişafı, Hökumətlərarası İqtisadi Əməkdaşlıq Komissiyasının fəaliyyəti, Azərbaycan-Rusiya İşgüzar Şurasının rolu, habelə iqtisadi əlaqələrin daha da genişləndirilməsi imkanları müzakirə edilib. Sonuncusu cari il aprelin 16-da Zəngilanda keçirilmiş hökumətlərarası komissiyanın ikitərəfli iqtisadi münasibətlərdə rolu vurğulanıb.

Nazirlər qlobal iqtisadiyyatda mövcud mürəkkəb vəziyyətə baxmayaraq, Azərbaycan ilə Rusiya arasında ticarət dövriyyəsinin müsbət dinamikasının qorunduğunu qeyd ediblər.

Nəqliyyat bağlantılarının və regional nəqliyyat layihələrinin inkişafının təkcə iştirakçı dövlətlərin deyil, bütövlükdə regionun iqtisadi dayanıqlığının möhkəmləndirilməsinə xidmət etdiyi vurğulanıb. Qeyd olunub ki, bu istiqamətdə həyata keçirilən layihələr qarşılıqlı fayda əsasında bütün iştirakçıların maraqlarına xidmət etməli, etimadın möhkəmlənməsinə, iqtisadi inkişafın və regional əməkdaşlığın genişlənməsinə töhfə verməlidir.

Tərəflər nəqliyyat və tranzit əməkdaşlığına dair məsələləri nəzərdən keçirərək, Beynəlxalq "Şimal-Cənub" Nəqliyyat Dəhlizi çərçivəsində əməkdaşlığın inkişafı, multimodal daşımaların genişləndirilməsi və logistika marşrutlarının səmərəliliyinin artırılmasının əhəmiyyətini qeyd ediblər.

Görüşdə humanitar sahədə əməkdaşlıq, mədəniyyət, təhsil, elm və idman sahələrində əlaqələrin inkişafı, insanlar arasında təmasların, akademik və gənclər mübadiləsinin təşviqi məsələləri müzakirə olunub.

Bununla yanaşı, hər iki ölkənin vətəndaşları üçün əlverişli şəraitin yaradılması, akademik mübadilənin genişləndirilməsi, habelə mədəniyyət və təhsil müəssisələri arasında əməkdaşlığın davam etdirilməsinin vacibliyi qeyd olunub.

Xəzər dənizində ekoloji vəziyyət, o cümlədən su səviyyəsinin azalması ilə bağlı yaranan çağırışlar və bu istiqamətdə əməkdaşlığın əhəmiyyəti diqqətə çatdırılıb. Bu problemlərin həlli məqsədilə Xəzəryanı dövlətlər arasında koordinasiyalı fəaliyyətin, elmi tədqiqatların və birgə praktik tədbirlərin vacibliyi qeyd olunub.

Nazirlər regional və beynəlxalq gündəlikdə duran aktual məsələləri də müzakirə ediblər. Cənubi Qafqazda mövcud vəziyyətə toxunan nazir Ceyhun Bayramov 44 günlük Vətən müharibəsindən sonra regionda formalaşmış yeni reallıqların beynəlxalq hüququn, xüsusilə dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsiplərinə əsaslandığını vurğulayıb.

Azərbaycanın sülh gündəliyinə sadiqliyi, həyata keçirdiyi konstruktiv təşəbbüslər, o cümlədən etimad quruculuğu istiqamətində atdığı addımların normallaşma prosesinin irəliləməsinə mühüm töhfə verdiyi diqqətə çatdırılıb. Həmçinin sülh prosesi çərçivəsində qalan məsələlərin həllinin Cənubi Qafqazda uzunmüddətli sabitliyin, rifahın və qarşılıqlı etimadın daha da möhkəmlənməsinə xidmət edəcəyinə əminlik ifadə olunub.

Görüş zamanı Yaxın Şərqdə vəziyyət, Rusiya-Ukrayna münaqişəsi və digər regional və beynəlxalq təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Diplomatik dialoqun və beynəlxalq hüququn norma və prinsiplərinə hörmətin sülhün və sabitliyin təmin edilməsində əhəmiyyəti vurğulanıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Nazirlər daha sonra mətbuat konfransında çıxış edib, media nümayəndələrinin suallarını cavablandırıblar.

Səfər çərçivəsində həmçinin Azərbaycan və Rusiya xarici işlər nazirləri arasında 2026-2027-ci illər üzrə Məsləhətləşmələr Planı imzalanıb.

# Baş prokuror Samux rayonunda vətəndaşları qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**



İyulun 17-də baş prokuror Kamran Əliyev Samux Rayon Prokurorluğunun inzibati binasında Samux, Göygöl və Daşkəsən rayonundan olan vətəndaşları qəbul edib. Qəbuldan əvvəl baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rayonun mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 26 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

# IV Şuşa Qlobal Media Forumu



# Şuşa Forumu: müdrikliyin və qətiyyətin təntənəsi

**İnformasiya dövründə beynəlxalq medianın rolunun sürətlə artması yaşadığımız dövrün təkzibedilməz reallığıdır. Azərbaycan bu reallığı nəinki dərindən dərk etdiyini, habelə və dövlət maraqları naminə ondan faydalanmaq bacarığını illərdir ki, uğurla nümayiş etdirir. Ölkəmizdə gözəl ənənə halını almış Qlobal Media Forumu deyilənlərin ən bariz nümunələrindəndir. Forumların daha böyük mənasını beynəlxalq icmanın və mətbuatın Prezident İlham Əliyevin müdrik siyasətçi baxışlarını və tövsiyələrini dünyaya yaymaq istəyindən ibarət olduğunu sübut etməyə elə də ehtiyac yoxdur. Forum iştirakçılarının sayı, coğrafiyası və statusları etibarlı dəlil rolunu, düşünürəm ki, uğurla yerinə yetirir.**

## Azərbaycana artmaqda olan beynəlxalq maraq

Azərbaycanın böyük beynəlxalq dialoq mərkəzinə çevrilməsi, çoxsaylı dünya səviyyəli möhtəşəm tədbirlərə evsahibliyi etməsi, eləcə də Qlobal Media Forumu kimi diqqətəlayiq ənənənin əsasını qoyması ölkəmizin artmaqda olan rolunun və nüfuzunun birbaşa nəticəsidir. SSRİ-nin süqutundan sonra ağır iqtisadi, siyasi və sosial mirasla üz-üzə qalan gənc Azərbaycan dövləti Ümummilli Lider Heydər Əliyevin müdrik siyasəti və qətiyyəti sayəsində ən qısa zamanda iqtisadi-siyasi sabitliyi təmin etməyə, Ermənistanın ölkəmizə qarşı başladığı müharibəni dayandırmağa, iqtisadi tənəzzülün qarşısını almağa, nəinki Azərbaycanın və regionun, hətta bütün dünyanın enerji xəritəsini dəyişdirməyə əsas yaradan Əsrin Neft Müqaviləsini imzalamağa nail oldu. Artıq 30 ildən çoxdur ki, Azərbaycan Respublikası beynəlxalq icmanı bir-birindən əzəmətli uğur və nailiyyətləri ilə təəccübləndirməkdədir. Ən ümumi şəkildə bu uğurların sadəcə sadalanması ölkəmizin keçdiyi yolun əzəməti haqqında aydın təəssürat yaradır: iqtisadiyyatın sıçrayışla yüksəlməsi və Azərbaycanın iqtisadi modeli adlanan fenomenin meydana gəlməsi, ölkəmizin ən uğurlu dövlət statusuna sahib olması, ard-arda baş verən diplomatik nailiyyətlər, ölkəmizin müasirləşməsi və simasının sürətlə yenilənməsi, yeni və perspektivli beynəlxalq enerji aktoruna çevrilməsi, 30 ilə yaxın müddət ərzində davam edən erməni işğalına son qoyulması... Qarabağın və Şərqi Zəngəzurun azad edilməsindən sonra sadalanan bu tarixi nailiyyətlərə yeni möhtəşəm layihə əlavə olunmaqdadır. Böyük qayıdış adlandırılan bu layihə əsasında işğal dövründə bütünlükdə yerlə yeksan edilmiş ərazilərdə həyat tamamilə yenidən qurulur, regionun yeni möcüzəsi yaradılır.

Dünya, əslində, Azərbaycan Respublikasının timsalında qətiyyətlin, mübarizliyin, qalib gəlmək bacarığının, eyni zamanda quruculuğun, müasirliyin yeni nümunəsinin şahidi olmaqdadır. Lakin düşünürəm ki, ölkəmizin bütün dünyaya fəxrlə nümayiş etdirdiyi digər və daha əhəmiyyətli amil İlham Əliyev fenomeni, onun rəhbər və siyasətçi təcrübəsidir. Xalqımız cənab İlham Əliyevin bir ölkənin prezidenti çərçivəsini aşaraq geniş beynəlxalq hörmət və ehtiram daşıyıcısına çevrilən nüfuzlu dövlət xadimi və siyasətçi qismində tanınmasına məmnunluqla şahidlik etməkdədir.

Ümummilli Lider Heydər Əliyevin və onun layiqli varisi Prezident İlham Əliyevin sayəsində Azərbaycan bir sıra əzəmətli nailiyyətlər qazanıb ki, onların hər biri, əslində, böyük dəyəri olan milli sərvətlər sayılmağa layiqdir. Bir həqiqət də ondan ibarətdir ki. ölkəmizin qürur duyduğu milli sərvətlər sırasında onun beynəlxalq nüfuzu, Prezident İlham Əliyevə olan dərin hörmət və ehtiram xüsusi yer tutur. Bu mənada ölkəmizdə keçirilən bütün beynəlxalq tədbirlərin, o cümlədən IV Media Forumunun başlıca cazibə qüvvəsinin Prezident İlham Əliyevdən ibarət olması qətiyyətlə qeyd oluna bilər və qeyd olunmalıdır.

## Azərbaycan təcrübəsinin öyrənilməsi və təbliği

Böyük nailiyyətlər qazanmış ölkələrin təcrübəsinin öyrənilməsi qədim tarixə malik ənənə sayılır. Qürurverici haldır ki, müasir dövrdə təcrübəsi öyrənilən və təbliğ edilən dövlətlər arasında Azərbaycanın adı getdikcə daha tez-tez çəkilməkdədir. Müşahidə edilən odur ki, ölkəmizin çoxşaxəliliyi ilə seçilən uğurları hər bir konkret dövlət üçün faydalı ola bilir və buna görə də Azərbaycanın cazibədarlığı artıq sanki beynəlxalq brendə çevrilib.

Yaşadığımız dövr bir sıra uzun sürən qanlı münaqişələr və müharibələrlə müşayiət olunur. Bu kontekstdə 2020-ci ildə qazandığımız əzəmətli Qələbənin və 2023-cü ildə separatizm yuvasının birdəfəlik ləğv edilməsinin tarixi əhəmiyyəti yalnız dünya hərb tarixinin "qızıl fondu"na daxil olması ilə yekunlaşmır. Vətən müharibəsi nəinki Qarabağ və Şərqi Zəngəzuru işğaldan azad etdi, Azərbaycanın tam ərazi suverenliyini bərpa etdi, habelə böyük beynəlxalq siyasi hadisəyə çevrildi. Söhbət müasir münaqişələri uğurla, qısa vaxtda aradan qaldırmaq bacarığının və nümunəsinin dünya birliyinə təqdim edilməsindən gedir. Beynəlxalq ekspertlərlə yanaşı, münaqişə ağrılarını yaşamağa məhkum olmuş ölkələrin rəhbərlərinin Azərbaycan təcrübəsinə dərin marağını anlamaq o qədər də çətin deyil. Ədalət naminə vurğulanmalıdır ki, ölkəmiz qazandığı zəngin təcrübəni həvəslə bölüşür və bununla da dünyada sülhün və anlaşmanın bərqərar olmasına mühüm töhfə verir.

Onu da ayrıca qeyd etməkdə fayda var ki, Azərbaycanın bölüşdüyü təcrübə tək Qələbə nümunəsi ilə yekunlaşmır. Sıçrayışlı iqtisadi yüksəliş, müasirləşmə, innovativ inkişaf yolları, ənənəvi enerji ilə yanaşı, bərpaolunan enerji növlərinin istifadə edilməsi kimi problemin uğurla uzlaşdırılması və sair Azərbaycan təcrübəsinin zənginliyindən xəbər verən reallıqlardır.

30 il işğala məruz qalan Azərbaycanın möhtəşəm qələbəsindən dərhal sonra regionda sülh və əməkdaşlıq çağırışlarının onun xarici siyasət gündəliyinin əsas qayəsinə çevrilməsi ölkəmizin beynəlxalq təcrübəsinin cazibədarlığını xüsusilə artırır. Uzun sürən münaqişə və müharibə dövrünü yaşayan ölkələrin əməkdaşlıq gündəliyini bərpa etməsinə onilliklər lazım olduğu halda Azərbaycanın ən qısa vaxtda əməkdaşlıq çağırışlarına sadiq qalması özlüyündə beynəlxalq həyatın unikal hadisəsidir. Təbii ki, Prezident İlham Əliyev siyasətinin ən parlaq xüsusiyyətləri sırasında yer tutan sadalanan məqamlar çoxları üçün faydalı və cəlbedici olduğundan onların Şuşa Qlobal Media Forumunda xüsusi diqqət mərkəzində olması tamamilə təbii və anlaşılandır.

Diqqətçəkən digər Azərbaycan təcrübəsi sırasında regionda beynəlxalq kommunikasiya layihələri qeyd oluna bilər. Ölkəmizin qeyri-adi coğrafi imkanlarının qüdrətli geopolitik amilə çevrilməsi İlham Əliyevin diplomatik konsepsiyasının ayrıca tərkib hissəsini təşkil edir, ciddi iqtisadi dividendlər vəd edir və buna görə də öz növbəsində xüsusi cazibə amilinə çevrilir.

Beləliklə, Azərbaycan və onun tarixi əhəmiyyət kəsb edən təcrübəsi ilə yanaşı, Prezident İlham Əliyevin aydın müşahidə olunan zəngin təcrübəsi beynəlxalq medianın diqqətindən kənarda qalmır. Tanınmış jurnalistlərin, ekspertlərin, qlobal media nəhənglərinin aparıcı nümayəndələrinin yolunun tez-tez Azərbaycana düşməsi ölkəmizə və onun zəngin təcrübəsinə qlobal marağın ibrətamiz nümunəsidir. Bu, eyni zamanda yenidən qurulan Qarabağ və Şərqi Zəngəzurun timsalında Azərbaycanın imkan və bacarıqlarının, Prezident İlham Əliyevin idarəçilik baxışlarının genişliyinin parlaq nümayişidir.

## Prezident İlham Əliyevin sülh tövsiyələri

Azərbaycan dünyada uğurlu keçidin diqqətəlayiq məkanlarından biridir desək, düşünürəm ki, səhvə yol vermərik. İqtisadiyyatda və sosial sferada tətbiq olunan müasir innovativ yanaşmalar, "yaşıl keçid", digər çoxsaylı yeniliklər sözügedən reallıqlardan xəbər verir. Cəmi bir neçə il bundan əvvələ aid olan müharibə ritorikasından sülh və əməkdaşlıq gündəliyinə keçid, bir yandan ölkəmizin beynəlxalq cazibədarlığını əhəmiyyətli dərəcədə artırıb, digər yandan isə Azərbaycana və ölkəmizin təcrübəsinə marağı inanılmaz dərəcədə gücləndirib. Tanınmış beynəlxalq informasiya kanallarının günlərdir davam edən Şuşa Qlobal Forumundan materiallar paylaşması bu marağın aydın ifadəsidir.

Forumda ən çox yaddaqalan məqamlar sırasında iştirakçıların Prezident İlham Əliyevin müxtəlif sahələrlə əlaqədar tövsiyələrini xahiş etməsi xüsusilə vurğulanmağa layiqdir. Əvvəla, beynəlxalq media nəhənglərinin Azərbaycan Prezidentinin ayrı-ayrı məsələlərlə əlaqədar tövsiyələrini öyrənməyə çalışması olduqca diqqətəlayiq haldır. Digər tərəfdən isə inanırıq ki, bu tövsiyələr müxtəlif ölkələrdə qarşıya çıxan problemlərin aradan qaldırılmasında stimulverici rol oynaya biləcək, çünki səsləndirilən tövsiyələr müdrik Prezidentin qazandığı təcrübə kimi ciddi əsasa istinad edir.

Diqqəti çəkən məqam həm də ondan ibarətdir ki, Prezident öz tövsiyələri ilə qarşımızda təcrübəli dövlət xadimi olmaqla yanaşı, eyni zamanda dərin insani keyfiyyətlərə malik olan lider kimi dayanır. O, zorən müharibəyə cəlb edilən ölkələrə qətiyyət nümayiş etdirməyi arzulamaqla yanaşı, münaqişənin dayandırılması istəyini özünün insani mövqeyi olaraq təqdim edir və bu baxımdan fundamental humanist dəyərlər carçısı mahiyyətini ortaya qoyur.

Düşünürəm ki, artıq ənənə halını almış Qlobal Media Forumu təkcə Azərbaycanın uğurlarının dünyaya təqdimatı baxımından mühüm əhəmiyyət kəsb etdirmir. Onun daha geniş beynəlxalq missiya daşıyıcısı olması gündəliyinin zənginliyindən, müasir qlobal proseslərə həssaslığından, Prezident İlham Əliyevin çoxşaxəli baxışını dolğun və ilk mənbə əsasında şərh etmək imkanına malik olmasından qaynaqlanır. ABŞ Prezidenti Donald Trampın Prezident İlham Əliyevin forumda çıxışını öz sosial şəbəkə səhifəsində paylaşması həm foruma, həm də dövlətimizin başçısının baxışlarına və qiymətləndirilməsinə ən yüksək beynəlxalq reaksiya hesab oluna bilər. Azərbaycanın, onun uğurlarının və Prezidentinin fəaliyyətinin müasir dünyanın diqqət mərkəzində olması müasir tariximizin ruhlandırıcı reallığına çevrilib. Ölkəmizin böyük və etibarlı gələcəyə doğru qətiyyətli addımları bu reallıqlar zəminində daha inamlı görünür. Təqdirəlayiqdir ki, "Azərbaycan dünyaya günəş kimi doğacaq" deyən Ümummilli Lider Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi onun 1969-cu il iyul ayının 14-də Azərbaycanın rəhbəri seçilməsinin ildönümü ərəfəsində Şuşa Qlobal Media Forumunun timsalında bir daha təsdiqini tapır.

***Əli ƏHMƏDOV,***
***Yeni Azərbaycan Partiyası Sədrinin müavini***

# "Kəssə hər kim tökülən qan izini"

## Ölkəmizin bu missiyanı yerinə yetirmək istəyi IV Şuşa Forumunda bir daha bəyan olundu



**"Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusuna həsr olunmuş IV Şuşa Qlobal Media Forumunda Prezident İlham Əliyevin beynəlxalq media qurumlarına, jurnalistlərə, ekspertlərə və dünya liderlərinə etdiyi mühüm çağırışlar, verdiyi dəyərli açıqlamalar və qarşılıqlı əməkdaşlıq haqqında mesajlar beynəlxalq mediada geniş işıqlandırılaraq böyük əks-səda doğurub.**




Nüfuzlu qəzetlər, informasiya agentlikləri və xəbər portalları Azərbaycan liderinin sülh və beynəlxalq hüquqla bağlı çağırışlarını, ədalətli sülh, regional sabitlik və dezinformasiya ilə mübarizə haqqında mesajlarını gündəmin əsas xəbəri kimi yayımladılar. Dövlətimizin başçısının dünyamızda narahatlıqlar yaradan müxtəlif mövzuları əhatə edən suallara cavabları bütün dünyada böyük marağa səbəb oldu, dünyada gedən qlobal proseslərə münasibəti, eləcə də Rusiya, ABŞ, Pakistan, İran və Avropa İttifaqı ilə əlaqələrə dair səsləndirdiyi fikirlər beynəlxalq mediada manşet kimi yayıldı.

Forumda Prezident İlham Əliyevə verilən suallardan biri də dünyada islam həmrəyliyinin möhkəmləndirilməsi və gücləndirilməsi istiqamətində Azərbaycanın göstərdiyi səylər, atdığı addımlar və gördüyü işlər barədə idi. Dövlətimizin başçısı bildirdi ki, biz gələn il İslam Əməkdaşlıq Təşkilatının Zirvə toplantısına evsahibliyi edəcəyik: "Xüsusilə indiki təlatümlü dövrdə bu, bizim üçün böyük məsuliyyətdir. Azərbaycan hər zaman müsəlman ölkələri arasında həmrəyliyi güclü təşviq edib. Azərbaycanda keçirilən çoxsaylı tədbirlər və irəli sürdüyümüz təşəbbüslər həmrəylik, qarşılıqlı anlaşma və birliyə xidmət edib".

Azərbaycan həmişə qarşılıqlı əməkdaşlığa, əmin-amanlıq şəraitində yaşamağa üstünlük verib. Buna görə də demək olar ki, ötən illər ərzində dünyanın bir çox ölkəsi ilə iqtisadi, siyasi və mədəni əlaqələr qurulub. İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən xarici siyasət sayəsində Azərbaycan yalnız xarici ölkələrlə deyil, nüfuzlu beynəlxalq təşkilatlarla da sıx əlaqələr yaradıb. 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatına uğurla sədrlik edib. Bu gün Azərbaycan dünyada böyük nüfuza malik olan dövlətlərdən biri kimi tanınır. Məhz elə buna görədir ki, bir çox nüfuzlu ölkə Azərbaycanla qurulmuş qarşılıqlı əməkdaşlığı genişləndirməyə və şaxələndirməyə çalışır.

Azərbaycan 2001-ci ildən Avropa Şurasının Parlament Assambleyası (AŞPA) ilə də əməkdaşlıq edir. Bu əməkdaşlıq qarşılıqlı hörmətə, daxili işlərə qarışmamaq prinsipinə və bərabərhüquqlu əməkdaşlığa əsaslanır. Bir qayda olaraq ölkəmiz həmişə üzərinə götürdüyü öhdəlikləri yüksək səviyyədə yerinə yetirir. Amma təəssüflər olsun ki, bu beynəlxalq təşkilatda uzun illərdən bəri kök salmış erməni lobbisinin diktəsi ilə oturub-duran bəzi qüvvələr ölkəmizin əleyhinə ədalətsiz qətnamələrin qəbul olunmasına çalışırlar. Hər addımda işğalçı Ermənistanı dəstəkləyirlər. Zərərçəkənin yox, işğalçının yanında olurlar. Uzun illərdən bəri işğaldan əziyyət çəkmiş Azərbaycan haqqında həqiqəti dillərinə gətirmirlər. Bu ədalətsizliklər isə sonda AŞPA ilə Azərbaycan arasındakı qarşılıqlı əlaqələrdə müəyyən çatlar əmələ gətirir, soyuqluq yaradır. Prezident İlham Əliyev forumda sualları cavablandırarkən bu barədə demişdir: "Biz toqquşma axtarmırıq və xüsusən də bir vaxtda ki, nəinki Avropa Şurası Parlament Assambleyası, o cümlədən Avropa Parlamenti dövri olaraq bizə yenə də hər hansı əsas olmadan hücum çəkir. Düşünürəm ki, onların Azərbaycana bir növ qərəzi var. Beş il ərzində onlar Azərbaycanı hədəfləyən 13 qətnamə qəbul ediblər və onlardan heç biri bizim üçün vacib deyil, onlardan heç biri burada hər hansı məsələyə təsir etmir". Dövlətimizin başçısı çıxışının sonunda onu da xüsusi olaraq qeyd etdi ki, biz normallaşmaya hazırıq və ilk addımı onlar atmalıdırlar. Çünki qarşılıqlı münasibətlərə soyuqluq gətirən Azərbaycan tərəfi deyil, AŞPA-dır.

Şuşa Qlobal Media Forumunda Prezident İlham Əliyevə ünvanlanan suallardan biri də ABŞ Konqresi tərəfindən 1992-ci ildə Azərbaycana qarşı qəbul edilmiş Azadlığa Dəstək Aktına 907-ci düzəlişlə bağlı oldu. Dövlətimizin başçısı ona ünvanlanan bu suala cavab verərək ABŞ-Azərbaycan münasibətlərinin indiki vəziyyətindən və 907-ci düzəlişin ləğv edilməsi istiqamətində aparılan işlərdən danışdı. Vurğuladı ki, həmin düzəliş Konqres tərəfindən nə qədər tez tam ləğv edilərsə, hamımız üçün, Azərbaycan üçün bir o qədər yaxşı olar: "Çünki biz artıq ayrı-seçkiliyə məruz qalmayacağıq və ABŞ Konqresi isə məsuliyyəti, səhvləri etiraf etmək bacarığını, cari geosiyasi vəziyyətə uyğun hərəkət etdiyini göstərə biləcək".

Göründüyü kimi, IV Şuşa Qlobal Media Forumunda daha çox dünyada, beynəlxalq aləmdə baş verən hadisələr, gedən siyasi və iqtisadi proseslər müzakirə olunub. Geosiyasi ziddiyyətlərin dərinləşdiyi, qlobal qarşıdurmaların dünyanı böyük problemlər qarşısında qoyduğu belə bir vaxtda Azərbaycan qazandığı zəngin təcrübəsinə əsaslanaraq sülh gündəliyini uğurla davam etdirir və bu prosesin həm də medianın aparıcı missiyası olduğunu təkrar-təkrar dünyaya göstərir, narahatlıqlar məngənəsində sıxılan dünyanı və insanları sülhə, əmin-amanlığa çağırır.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# IV Şuşa Qlobal Media Forumu



## Yüksək etimad və inam ünvanı

### Azərbaycan müstəqil siyasəti, səmimi tərəfdaşlığı ilə fərqli qütblərin etibarlı dialoq məkanına çevrilib

**Beynəlxalq münasibətlərdə son onilliklərdə özünü göstərən ən böyük problemlərdən biri dövlətlər arasında etibarın, inamın sarsılmasıdır. Xüsusən bu dövrdə fərqli regionlarda münaqişə ocaqlarının meydana çıxması, hərbi-siyasi qarşıdurmaların gərgin müstəviyə keçməsi mövcud vəziyyəti daha da kəskinləşdirib. Belə mürəkkəb şəraitdə dünyada etibarlı tərəfdaş kimi tanınmaq kifayət qədər çətindir.**

Azərbaycan məhz belə bir şəraitdə yürütdüyü dürüst, səmimi və müstəqil xarici siyasət sayəsində bu çətinlikləri aşaraq qlobal miqyasda konstruktiv diplomatiya və əməkdaşlıq mərkəzinə çevrilməyi uğurla bacaran azsaylı ölkələrdəndir. Bu danılmaz reallıq iyulun 13-14-də Şuşada keçirilən IV Qlobal Media Forumunda xarici nümayəndələrin dilindən də səsləndirildi.

Forum çərçivəsində "Yurovich Communications" qlobal kommunikasiya şirkətinin rəhbəri Roman Yuroviç dövlətimizin başçısına maraqlı sualla müraciət etdi. Qonaq Bakının geosiyasi statusunun artmasını, onun fərqli qütblərdə dayanan ölkələr arasında etibarlı körpü rolunu oynamasını xüsusi qeyd edərək mühüm bir məqama toxundu: "Azərbaycan torpağında, onun siyasi mədəniyyətində və dövlət rəhbərliyində hansı unikal xüsusiyyətlər var ki, bir-birinə qətiyyən güvənməyən, fərqli maraqları olan bu qlobal güclər ən çətin və mürəkkəb məsələlərin həlli üçün məhz Azərbaycana etibar edirlər?"

Prezident İlham Əliyev bu suala cavab verərkən Azərbaycanın beynəlxalq diqqət mərkəzində olmasını şərtləndirən bir çox amilin mövcudluğu ilə yanaşı, ilk növbədə etimad və səmimiyyət prinsipini ön plana çəkdi. Dövlətimizin başçısı inam və etibar amilini ölkəmizin davranış xətti kimi xarakterizə etdi: "Etimadı birinci yerə qoyardım. Həm də Azərbaycanın səmimiyyətinə etimadı. Çünki qeyd etdiyiniz bütün hallarda və onların bir çoxunda normallaşdırma səylərində iştirak üçün bizə müraciət edən hər kəs inanırdı və başa düşürdü ki, bizim heç bir gizli niyyətimiz yoxdur. Bu, həqiqətən də belədir, heç vaxt olmayıb".

Azərbaycan Prezidenti səmimiyyətlə yanaşı, tərəflər arasında dürüst vasitəçiliyi və regional gərginliyin azaldılmasında etibarlı münasibətlərin rolunu da xüsusi vurğuladı: "İkincisi, öz aralarında ortaq dil tapa bilməyənlərin hamısı ilə dürüst olacağımıza səmimi bir inamdır. Bu cür hallar həm keçmişdə, həm də yaxın tarixdə çox olub. Əlbəttə ki, bu, çox sevindiricidir. Bu göstərir, o dərəcədə etibarlı münasibətlər qurmuşuq ki, bu münasibətlər, sadəcə, vacib məsələləri müzakirə etməklə və gərginliyi azaltmaqla bəzi ölkələr üçün faydalı olmağımıza imkan verir".

Prezident İlham Əliyev ölkəmizin bu etibarı qazanmasında Qoşulmama Hərəkatı çərçivəsindəki sədrlik təcrübəmizi də xüsusi olaraq xatırladıb: "Qoşulmama Hərəkatı 120 ölkəni əhatə edir və onların bir çoxu bir-birini o qədər də çox sevmir, bəziləri hətta müharibə vəziyyətindədir. Amma biz seçiləndə və üç il sonra da hamısı yekdilliklə Azərbaycana səs verdi. Çünki seçiləndə, demək olar ki, biz kampaniya apardıq, özümüz barədə yaxşı şeylərdən danışdıq, amma üç il ərzində dediklərimizin hamısını etdik. Üç ildən sonra yeni sədr seçməkdə çətinliklər yarananda bizə müraciət etdilər: "Gəlin səlahiyyət müddətini uzadaq". Yenə də hamı yekdilliklə səs verdi".

Azərbaycan beynəlxalq miqyasda etimad və tərəfsiz vasitəçilik imici qazanıb. Bakı çoxdan dünya nəhənglərinin hərbi-siyasi böhran yaşadıqları dövrlərdə bir araya gəldikləri unikal dialoq platforması rolunu oynayıb. Yaxın tariximizdə baş tutan yüksəksəviyyəli tarixi görüşlər bunun əyani göstəricisidir. 2017-ci il fevralın 16-da Rusiya Silahlı Qüvvlərinin Baş Qərargah rəisi ilə ABŞ Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsinin sədri məhz Bakıda görüşərək iki böyük güc arasında hərbi gərginliyin azaldılması yollarını müzakirə etdilər. Elə həmin il sentyabrın 7-də NATO-nun Rusiya ilə birbaşa əlaqələri rəsmən dondurmasından sonra tərəflər arasında ilk birbaşa təmas da paytaxtımızda baş tutdu. Sonrakı illərdə də bənzər strateji görüşlərə məhz Azərbaycan evsahibliyi etdi.

Təkcə Rusiya və Qərb ittifaqı deyil, eyni zamanda Yaxın Şərq regionunda, eləcə də digər coğrafiyalarda bir-biri ilə ortaq dil tapa bilməyən fərqli dövlətlərin öz aralarındakı ziddiyyətli məqamların müzakirələri üçün Bakı hər zaman etibarlı dialoq məkanı hesab edilib.

Şübhəsiz, Azərbaycanın beynəlxalq arenada qazandığı böyük etimad dövlətimizin sınaqdan çıxmış strategiyasının məntiqi nəticəsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın həyata keçirdiyi xarici siyasət kursu bütövlükdə milli maraqlara və praqmatik dövlətçilik prinsiplərinə əsaslanır. Azərbaycan heç bir kənar gücün diktəsi ilə hərəkət etmir, hər hansı hərbi-siyasi bloklaşmanın tərkib hissəsi olmaqdan uzaq durur.

Azərbaycanın xarici tərəfdaşlarla qurduğu əlaqələrdə heç bir "arxa plan" yoxdur. Səmimi dialoq hər zaman rəsmi Bakının əsas xətti olub. Ölkəmiz daim beynəlxalq hüququn prinsiplərinə və qarşılıqlı hörmətə söykənən əlaqələrə üstünlük verib. Bu strategiya rəsmi Bakıya qlobal ziddiyyətlərdə tərəfsiz, ədalətli və səmimi dövlət olmaq imkanı verir. Digər tərəfdən, BMT-dən sonra dünyanın ən böyük ikinci siyasi təşkilatı olan Qoşulmama Hərəkatında yer alan 120 müxtəlif dövlətin Azərbaycanın quruma sədrlik müddətinin uzadılması barədə yekdil qərar verməsi də ölkəmizə böyük siyasi inamın və rəğbətin bariz göstəricisi idi.

Ölkəmizin qlobal səviyyədə qazandığı nüfuz özünü konkret əməli uğurlarda da göstərir. Regional təhlükəsizlik və qlobal enerji arxitekturasının formalaşmasında Bakı hər zaman üzərinə düşən öhdəlikləri tam şəkildə yerinə yetirir. Bu səbəbdən Avropa ölkələri Azərbaycanı etibarlı və strateji enerji tərəfdaşı kimi görürlər.

Nəticə etibarilə Azərbaycan regional sabitliyin qorunmasında və qlobal gərginliklərin azaldılmasında etimad göstərilən dövlət kimi qəbul olunur. Bu da ölkəmizin gələcəkdə təhlükəsizlik və dialoq platforması kimi rolunu daha da möhkəmləndirəcəyinə zəmanət verir.

***İsmayıl QOCAYEV, "Azərbaycan"***

## Sarsılmaz birliyi təmin edən siyasət

**"Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusunda keçirilən IV Şuşa Qlobal Media Forumu müasir dünyanın aktual problemlərinin müzakirə edildiyi əhəmiyyətli bir tədbir oldu. Azərbaycanın tarixi zəfərini və ədalətli mövqeyini dünyaya çatdıran bu beynəlxalq tədbirdə səslənən fikirlər bir daha göstərdi ki, ölkəmizin regionda yaratdığı yeni reallıqlar dünya tərəfindən qəbul edilir.**

Şuşanın evsahibliyi etdiyi bu forum qlobal media nümayəndələrini bir araya gətirməklə yanaşı, işğaldan azad edilmiş ərazilərimizin sürətli intibahının, bərpa-quruculuq işlərinin dünyaya təqdimatı üçün unikal imkandır. Müxtəlif ölkələrdən gələn media təmsilçiləri və siyasi ekspertlər Şuşada aparılan genişmiqyaslı quruculuq işləri ilə tanış olaraq Azərbaycanın sülh və inkişafına yerində şahidlik etdilər. Bu baxımdan Şuşa Azərbaycanın mədəniyyət paytaxtı olmaqla yanaşı, ölkəmizin zəfərini və quruculuğunu dünyaya bəyan edən əsas mərkəzlərdən birinə çevrilib.

Forumun açılış mərasimində Prezident İlham Əliyev dünyaya mühüm mesajlar verdi. Dövlətimizin başçısının suallara cavabı ölkəmizin daxili və xarici siyasətinin əsas prinsiplərini bir daha dünya ictimaiyyətinin nəzərinə çatdırdı. Bu açıqlamalarda yer alan hər bir fikir həm də bu günümüz və gələcəyimiz üçün bələdçi rolunu oynayır.

Prezident İlham Əliyevin açıqlamalarının əsas xətti "biz yalnız özümüzə güvənməliyik" fəlsəfəsindən ibarətdir. Ölkə rəhbəri yürütdüyü uzaqgörən siyasətlə sübut etdi ki, dövlət özünə güvənməlidir. Dünyanın müxtəlif bölgələrində gərginliyin, qarşıdurmaların və qanlı müharibələrin baş verdiyi indiki mürəkkəb şəraitdə bu yanaşma öz aktuallığını daha da artırır.

Prezident İlham Əliyev vurğuladı ki, xarici təhdidlərin və qlobal risklərin artdığı bir dövrdə milli birlik xüsusi önəm kəsb edir. Azərbaycan öz torpaqlarını işğaldan azad edərkən və suverenliyini tam bərpa edərkən məhz bu prinsipi rəhbər tutmuşdu. Azərbaycan heç bir kənar qüvvədən kömək gözləmədən öz iqtisadiyyatını qurdu, ordusunu gücləndirdi və tarixi ədaləti öz gücü ilə bərpa etdi. Bu gün Azərbaycan cəmiyyətində olduqca yüksək səviyyədə həmrəylik mövcuddur. Dövlət başçısı forumda bu məqama xüsusi diqqət çəkərək bildirdi ki, hazırda ölkəmizdə hökm sürən birliyə bənzər mənzərə tapmaq çətindir. Bu həmrəylik xalqımızın daxili inamından və milli maraqların vəhdətindən doğan saf, sarsılmaz bir bağdır.

Dünyanın sürətlə dəyişdiyi, beynəlxalq hüquq normalarının bəzən tamamilə unudulduğu indiki şəraitdə arxayınlaşmaq ən böyük səhv olar. Yeni dövr özü ilə hibrid təhdidlər, informasiya müharibələri və ideoloji təzyiqlər kimi fərqli təxribatlar gətirir. Xüsusilə informasiya təhlükəsizliyi məsələsi müasir dövrün ən həssas cəbhələrindən biridir. Azərbaycan əleyhinə aparılan sistematik qarayaxma kampaniyaları, yalan xəbərlərin tirajlanması və dezinformasiya hücumları göstərir ki, müstəqil siyasət yürüdən ölkələrə qarşı təzyiq rıçaqları çoxşaxəlidir. Bu şəraitdə yerli medianın üzərinə düşən məsuliyyət ikiqat artır. Jurnalistlər yüksək peşəkarlıq nümayiş etdirməli, milli maraqları hər şeydən uca tutaraq, qlobal informasiya məkanında ölkəmizin haqlı səsini operativ və dolğun şəkildə çatdırmağı bacarmalıdırlar. Bu, ideoloji təhlükəsizliyimizin qorunmasında ən etibarlı qaladır.

Dövlətimizin başçısı qeyd etdi ki, müstəqillik daim qorunmalı və möhkəmləndirilməli olan ən böyük sərvətdir. Bu müqəddəs əmanəti gələcəyə daşıyacaq və qoruyacaq əsas qüvvə isə gənclərdir. Məhz buna görə də müasir dövrün çağırışları ilə bağlı öz milli kimliyimizi, köklərimizi qorumaq və yad təsirlərdən uzaq olmaq gənc nəslin əsas vəzifəsidir. Prezident İlham Əliyev gənclərin milli ruhda vətənpərvər böyüməsinin vacibliyini və dövlətin gələcək taleyinin məhz bu təmələ bağlı olduğunu vurğulayaraq dedi: "Bir çox misallar var ki, bəzi ölkələr, onların rəhbərləri kiminsə qanadının altına sığınırlar və hesab edirlər ki, bu, onları qoruyacaq. Amma nəticə etibarilə olurlar qurban. Böyük oyunların qurbanları. Bizim xalqımız həm işğal görüb, həm dağıntılar görüb, həm Zəfər görüb, həm də bu gün bu bərpa və dirçəliş dövrünü həm görür, həm də bunun iştirakçısıdır. Ona görə bu sözlərim gələcək nəsillərə, gənc nəslədir ki, Azərbaycan xalqı əbədi, yəni qürurlu xalq kimi, qalib xalq kimi yaşasın, milli kimlik hər şeydən üstün olmalıdır, milli ləyaqət hər şeydən üstün olmalıdır. Məğlub ola bilərsən, - indi olur belə hadisələr, - amma gərək heç vaxt əyilməyəsən, sınmayasan. Heç vaxt işğalçı ilə razılaşmayasan, işğalçının diktəsi ilə oturub-durmamalısan. Lazım olsa, ölsən də belə gərək ləyaqətlə yaşayasan və öz övladlarına, nəvələrinə, nəticələrinə bunu aşılayasan. Ona görə bizim gələcək inkişafımız gənc nəslə bağlı olacaq, təqribən 20 il, 30 il, 50 il sonra. Onlar da bizim kimi Vətənə bağlı, mətin, iradəli, güclü olmalıdırlar ki, Azərbaycan daim yüksəklərdə olsun".

Bu gün fəxrlə xatırladığımız tarixi hadisələr vətənpərvərliyin əməldə necə böyük qüvvəyə çevrildiyini sübut edir. 44 günlük Vətən müharibəsində Şuşanı, Füzulini, Kəlbəcəri və digər əzəli torpaqlarımızı işğaldan azad edən qəhrəmanlar məhz bu cür yüksək milli ruhda, müstəqillik illərində yetişən gənclərimiz oldu. Onlar canlarını Vətən yolunda fəda edərək Azərbaycanın yeni şanlı tarixini yazdılar.

"Böyük qayıdış" proqramının icrası sayəsində bu gün Qarabağ və Şərqi Zəngəzurda yeni həyata başlayan gənc nəsil bu sarsılmaz birliyin və milli ləyaqətin təntənəsidir. Keçmiş məcburi köçkünlərin öz doğma yurdlarında qurduqları yeni həyat, yenidən inşa edilən müasir məktəblər və infrastruktur layihələri vaxtilə törədilən vandallığa verilən ən böyük cavabdır.

IV Şuşa Qlobal Media Forumu bir daha göstərdi ki, Azərbaycan həm regional, həm də qlobal səviyyədə sülhün və ədalətin əsas təmsilçilərindəndir. Şuşadan dünyaya yayılan bu mesajlar xalqımızın öz taleyinin sahibi olduğunu, müstəqilliyini hər zaman uca tutacağını və sarsılmaz birliklə gələcəyə doğru qətiyyətlə addımlayacağını nümayiş etdirir.

***Təhminə VERDİYEVA, "Azərbaycan"***

## Azərbaycan-ABŞ əlaqələri regionun təhlükəsizlik arxitekturasına müsbət təsir göstərir

**ABŞ Prezidenti Donald Trampın Prezident İlham Əliyevin IV Şuşa Qlobal Media Forumunda səsləndirdiyi fikirlərlə bağlı sosial şəbəkələrdəki paylaşımı və dövlətimizin başçısına təşəkkür etməsi ölkələrimiz arasında yüksəksəviyyəli münasibətlərin göstəricisidir.**



**Milli Məclisin deputatı Nigar MƏMMƏDOVA** qəzetimizə açıqlamasında deyib ki, enerji təhlükəsizliyi, terrorizmlə mübarizə, beynəlxalq missiyalara dəstək və regional sabitlik kimi istiqamətlər uzun illər Azərbaycanla Amerikanın əməkdaşlığının əsas istiqamətlərini təşkil edib. Hazırkı mərhələdə müşahidə olunan dinamika da Vaşinqton və Bakı arasında münasibətlərin inkişafına əlavə töhfə verir. "Ümumiyyətlə, dövlət başçıları arasında qarşılıqlı hörmət və etimad olduqca vacibdir. Xüsusilə mürəkkəb beynəlxalq münasibətlər sistemində liderlər səviyyəsində verilən mesajlar xüsusi əhəmiyyət kəsb edir. Prezident İlham Əliyev Şuşa Qlobal Media Forumunda çıxışı zamanı da ABŞ ilə münasibətlərin Azərbaycan üçün əhəmiyyətli olduğunu vurğulayaraq bildirdi ki, Bakı Vaşinqtonla qarşılıqlı hörmətə, beynəlxalq hüquqa və ölkələrin suverenliyinə əsaslanan əməkdaşlığın tərəfdarıdır. Cənab Prezidentin də qeyd etdiyi kimi, Azərbaycan heç bir ölkə ilə qarşıdurma siyasəti yürütmür və Amerika ilə münasibətlərin inkişaf etdirilməsi hər iki tərəfin maraqlarına cavab verir", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, münasibətlərin qarşılıqlı maraqlar və bərabərhüquqlu tərəfdaşlıq prinsipləri üzərində qurulması rəsmi Bakı üçün hər zaman ön plandadır. Bu yanaşma Azərbaycanın son illərdə həyata keçirdiyi çoxşaxəli xarici siyasət kursunun əsas prioritetidir. Xəzər hövzəsinin enerji ehtiyatlarının Avropa bazarlarına çıxarılması, Orta dəhlizin inkişafı, nəqliyyat-logistika layihələri və "yaşıl enerji" təşəbbüsləri Azərbaycanın ABŞ üçün də strateji əhəmiyyətini artıran amillər sırasındadır.

N.Məmmədova vurğulayıb ki, Azərbaycanın Cənubi Qafqazda formalaşdırdığı yeni regional əməkdaşlıq modeli Ağ Ev üçün maraq doğuran istiqamətlərdəndir: "Postmünaqişə dövründə sülh gündəliyinin irəli aparılması, kommunikasiyaların açılması, iqtisadi inteqrasiyanın təşviqi və regionun sabit inkişafı Vaşinqton tərəfindən dəstəklənir. Bu baxımdan ABŞ-nin Azərbaycanla konstruktiv dialoqunun güclənməsi, bütövlükdə regionun təhlükəsizlik arxitekturasına müsbət təsir göstərir. Prezident İlham Əliyevin Şuşa Qlobal Media Forumunda səsləndirdiyi fikirlər də Azərbaycanın Vaşinqtonla qarşılıqlı hörmətə və strateji maraqlara əsaslanan əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu nümayiş etdirir".

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

## Azərbaycan-ABŞ münasibətləri: Siyasi bəyanatlardan praktik əməkdaşlığa

**Diplomatiyada bir il çox qısa müddət sayılır. Amma Azərbaycan və ABŞ münasibətlərində son bir il qısa müddətdə də böyük dəyişikliklərin mümkün olduğunu göstərdi.**

Prezident İlham Əliyevin ötən ilin avqustunda ABŞ-yə səfəri münasibətlərdə yeni səhifə açdı. Bu il fevralın 10-da Bakıda imzalanan "Strateji Tərəfdaşlıq Xartiyası" isə yeni mərhələnin məntiqi nəticəsi hesab oluna bilər. Sənədin imzalanmasından ötən cəmi bir neçə ay müddətində münasibətlər artıq siyasi bəyanatlardan praktik əməkdaşlıq mərhələsinə keçib. Bu gün Vaşinqton və Bakı arasında münasibətlər təhlükəsizlik, iqtisadiyyat, enerji və yeni texnologiyaları əhatə edən daha geniş strateji tərəfdaşlıq formatında inkişaf edir.

Vaşinqtonda hesab edirlər ki, bunun əsas səbəblərindən biri Azərbaycanın regionda artan strateji əhəmiyyətidir.

AZƏRTAC-a açıqlamasında **Qlobal Siyasət İnstitutunun prezidenti Paolo Von ŞİRAH** deyib ki, Azərbaycan hər hansı başqa bir dövlətin təsiri altında deyil, öz milli maraqlarına uyğun müstəqil qərarlar qəbul edir və ABŞ də bu qərarları dəstəkləyir. "ABŞ qlobal dövlətdir və dünyanın yüzlərlə ölkəsi ilə münasibətlərə malikdir. Azərbaycan da bu mühüm tərəfdaşlardan biridir. Hazırda regionda proseslər müsbət istiqamətdə inkişaf etdiyinə görə, ABŞ qəbul olunan qərarların həyata keçirilməsinə daha çox diqqət ayırır",- deyə o bildirib.

Bu yanaşma artıq konkret layihələrdə də özünü göstərir. İlk ABŞ-Azərbaycan İqtisadi Dialoqunun keçirilməsi, kritik minerallar üzrə əməkdaşlığın başlanması, Orta dəhliz və TRIPP təşəbbüsü ətrafında aparılan müzakirələr, eləcə də rəqəmsal texnologiyalar və süni intellekt sahəsində yeni layihələr tərəfdaşlığın praktik məzmun qazandığını göstərir.

**Amerikalı ekspert Riçard HOQLANDIN** sözlərinə görə, ABŞ artıq Azərbaycanın Cənubi Qafqazda geosiyasi və coğrafi əhəmiyyətini aydın şəkildə anlayır. O bildirib ki, bu çərçivədə Vaşinqtonun əsas məqsədlərindən biri regionda sülhün möhkəmləndirilməsi və məşhur dəhliz layihəsinin reallaşdırılmasına dəstək verməkdir.

"Bu dəhliz təkcə Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirməyəcək. O, eyni zamanda Türkiyə və Avropanı Xəzər dənizi və Mərkəzi Asiya ilə əlaqələndirən "Şərq-Qərb" nəqliyyat marşrutunun mühüm hissəsinə çevriləcək. Bu isə yükdaşımalar, ticarət, investisiyalar və yeni sənaye sahələrinin inkişafı üçün böyük imkanlar yaradacaq", - deyə o vurğulayıb.

**ABŞ Dövlət Departamenti** də Xartiyanın icrası istiqamətində konkret nəticələrin əldə olunduğunu bildirib. Qurumun AZƏRTAC-ın sorğusuna cavabında qeyd olunub ki, regional bağlantılar, iqtisadi investisiyalar, enerji, təhlükəsizlik əməkdaşlığı və süni intellekt sahələri üzrə birgə iş davam etdirilir.

Dövlət Departamentinin məlumatına görə, Bakı Enerji Həftəsi çərçivəsində kritik minerallar üzrə Anlaşma Memorandumu imzalanıb. İlk ABŞ-Azərbaycan İqtisadi Dialoqunda isə ümumi dəyəri 8 milyard dollara yaxın kommersiya müqavilələri və əməkdaşlıq sazişləri əldə olunub. Bundan əlavə, ABŞ Dövlət Departamentinin Kiber və Rəqəmsal Siyasət Bürosunun rəhbərliyi ilə Azərbaycanda "Süni İntellekt Həftəsi"nin keçirilməsi elan edilib.

Bir il əvvəl Vaşinqton və Bakı arasında başlayan yeni siyasi mərhələ bu gün artıq real əməkdaşlıq mexanizmləri ilə davam edir. Əsas hədəf artıq bu strateji tərəfdaşlığın qarşıdakı illərdə hansı yeni istiqamətlərə genişlənəcəyidir.



# Qurtuluşun başlanğıcı

**XX əsrin sonlarında Azərbaycan tarixinin ən ağır və taleyüklü dövrünü yaşayırdı. Dövlət idarəçiliyində dərin böhran hökm sürür, Ermənistanın hərbi təcavüzü genişlənir, Qarabağda qan tökülür və beləliklə, ölkə getdikcə idarəolunmaz vəziyyətə sürüklənirdi. Naxçıvan tam blokada şəraitində yaşayır, sərhəd kəndləri mütəmadi olaraq erməni quldurlarının hücumlarına məruz qalır, muxtar respublikanın iqtisadi və sosial həyatı iflic vəziyyətinə düşürdü. Belə bir şəraitdə xalqın sabaha olan inamı sarsılmışdı. Heydər Əliyevin məhz bu ağır dövrdə - 1990-cı il iyulun 20-də Moskvadan Bakıya gəlməsi, iyulun 22-də isə Naxçıvana getməsi təkcə böyük dövlət xadiminin doğma yurda dönüşü deyildi, Azərbaycan dövlətçiliyinin xilasına aparan yolun başlanğıcı oldu.**

Sonralar Heydər Əliyev həmin günləri xatırlayaraq deyirdi ki, Naxçıvan onu böyük məhəbbətlə qarşıladı və xalqın bu səmimiyyəti son illərin bütün çətinliklərini ona unutdurdu. Bu fikirlər yalnız şəxsi duyğuların ifadəsindən çox xalqla lider arasında mövcud olan sarsılmaz etimadın və mənəvi bağlılığın parlaq təzahürü idi.

Naxçıvana qayıdışdan cəmi iki ay sonra keçirilən parlament seçkilərində Heydər Əliyevin həm Azərbaycan Respublikasının, həm də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanlarına deputat seçilməsi xalqın ona olan böyük etimadının növbəti təsdiqi oldu. İnsanlar anlayırdılar ki, ölkənin düşdüyü ağır vəziyyətdən çıxış yolu yalnız zəngin dövlətçilik təcrübəsinə, siyasi iradəyə və uzaqgörənliyə malik liderin rəhbərliyi ilə mümkündür.

1990-cı il noyabrın 17-də Naxçıvan Ali Məclisinin ilk sessiyası Azərbaycanın müasir dövlətçilik tarixində yeni mərhələnin əsasını qoydu. Heydər Əliyevin sədrliyi ilə keçirilən həmin tarixi iclasda qəbul edilən qərarlar müstəqil Azərbaycan dövlətinin ideoloji və hüquqi təməllərinin formalaşmasında mühüm rol oynadı. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarıldı, Ali Sovet Ali Məclis adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvanın dövlət bayrağı kimi qəbul edildi və ölkəmiz üçün dövlət bayrağı elan olunması barədə Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırıldı.

SSRİ-nin hələ mövcud olduğu bir dövrdə belə qərarların qəbul edilməsi siyasi iradə və cəsarətin ifadəsi idi. Bu addımlar bir daha göstərirdi ki, Heydər Əliyev yalnız hadisələrin gedişini izləyən siyasətçi deyil, eyni zamanda müstəqil Azərbaycanın gələcəyini müəyyənləşdirən dövlət xadimidir.

Naxçıvanın blokada şəraitində yaşaması siyasi problemlərlə yanaşı, ciddi hərbi və iqtisadi təhlükələr də yaradırdı. Buna görə də Ulu Öndər ilk növbədə muxtar respublikanın təhlükəsizliyinin təmin edilməsinə xüsusi diqqət yetirdi. Milli Müdafiə Komitəsi yaradıldı, yerli özünümüdafiə qüvvələri formalaşdırıldı, əhalinin səfərbərliyi təmin olundu, hərbi texnikanın qorunması istiqamətində mühüm tədbirlər həyata keçirildi. Bütün bunlar Naxçıvanın işğal təhlükəsindən qorunmasında mühüm rol oynadı və sonralar müasir Azərbaycan Ordusunun formalaşması üçün dəyərli təcrübəyə çevrildi.

Lakin Ulu Öndər Heydər Əliyevin fəaliyyəti yalnız təhlükəsizlik məsələləri ilə məhdudlaşmırdı. Böyük təcrübəyə malik dövlət xadimi yaxşı bilirdi ki, güclü dövlətin əsas dayaqları milli birlik, sağlam iqtisadiyyat və düşünülmüş idarəçilikdir. Məhz buna görə də blokada şəraitinə baxmayaraq, Türkiyə və İranla əlaqələrin genişləndirilməsi, Araz çayı üzərində "Ümid" körpüsünün istifadəyə verilməsi, sərhəd-keçid məntəqələrinin fəaliyyətə başlaması və iqtisadi əməkdaşlığın inkişafı üçün Naxçıvanın qonşu ölkələrlə əlaqələrini bərpa etdi. Aqrar islahatların başlanması, torpaq münasibətlərinin yenidən qurulması və bazar iqtisadiyyatına keçid istiqamətində atılan addımlar isə Azərbaycanın gələcək iqtisadi inkişaf modelinin ilk uğurlu nümunələrindən biri oldu.

1991-ci il sentyabrın 3-də Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi təkcə muxtar respublikanın deyil, bütövlükdə Azərbaycanın ictimai-siyasi həyatında yeni mərhələnin başlanğıcı oldu.

1991-ci il dekabrın 16-da qəbul edilən daha bir mühüm qərar - 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün təsis olunması milli birlik ideyasının möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət daşıdı. Bu təşəbbüs dünyanın müxtəlif ölkələrində yaşayan milyonlarla azərbaycanlını vahid milli məfkurə ətrafında birləşdirən tarixi addım oldu. Beləliklə, Naxçıvan təkcə mühüm siyasi qərarların qəbul edildiyi məkan deyil, həm də azərbaycançılıq ideologiyasının yeni inkişaf mərhələsinin başlandığı mərkəzə çevrildi.

Naxçıvanda baş verən hadisələr göstərdi ki, xalqın taleyini dəyişən amil təkcə mövcud şərait deyil, həmin şəraitdə qəbul edilən düzgün siyasi qərarlardır. Blokada, iqtisadi çətinliklər və hərbi təhlükələrə baxmayaraq, Heydər Əliyevin rəhbərliyi ilə atılan addımlar insanlarda sabaha inam yaratdı, dövlətçiliyin sarsılmaz təməllərini formalaşdırdı. Məhz buna görə də Naxçıvan həmin illərdə Azərbaycanın siyasi düşüncə mərkəzinə çevrildi.

Bu dövrdə ölkənin müxtəlif bölgələrində yaşayan ziyalılar, elm və mədəniyyət xadimləri, cəmiyyətin müxtəlif təbəqələrini təmsil edən insanlar Azərbaycanın nicatını məhz Heydər Əliyevin siyasi rəhbərliyində görürdülər. Onların "Azərbaycan Sizi gözləyir!" müraciəti təkcə bir çağırış deyil, xalqın ümumi iradəsinin ifadəsi idi. Bu tarixi müraciətin nəticəsi olaraq 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis olunması ölkənin ictimai-siyasi həyatında mühüm bir mərhələnin başlanğıcı oldu.

Yeni Azərbaycan Partiyasının yaranması təsadüfi siyasi hadisə deyildi. O, dövlətçiliyin qorunmasını, milli həmrəyliyin möhkəmləndirilməsini və ölkənin gələcək inkişafını qarşıya məqsəd qoyan ümumxalq siyasi hərəkatına çevrildi. Çox keçmədən bu siyasi qüvvə Azərbaycanın taleyində həlledici rol oynayaraq xalqın ümid yeri oldu.

Əslində, 1993-cü ilin Milli Qurtuluşu birdən-birə baş vermədi. Onun ideoloji, siyasi və mənəvi təməli 1990-cı ilin iyulunda Naxçıvanda qoyulmuşdu. Ulu Öndərin burada həyata keçirdiyi dövlətçilik siyasəti, qəbul etdiyi tarixi qərarlar və formalaşdırdığı idarəçilik modeli sonrakı qurtuluş prosesinin əsasını təşkil etmişdi. Naxçıvanda başlanan yol üç il sonra Azərbaycanın xilasına aparan yola çevrildi.

1993-cü ilin iyununda ölkəmiz vətəndaş qarşıdurması, siyasi anarxiya və dövlətçiliyin süqutu təhlükəsi ilə üz-üzə qalanda xalq yenidən öz xilaskarına üz tutdu. Heydər Əliyevin Bakıya qayıdışı Azərbaycanı parçalanmaq təhlükəsindən xilas etdi, ölkədə sabitlik bərpa olundu, dövlət institutları möhkəmləndirildi və müstəqilliyin dönməzliyi təmin edildi. Məhz buna görə də 15 İyun Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu.

Artıq Azərbaycan ərazi bütövlüyünü və dövlət suverenliyini tam bərpa edərək Cənubi Qafqazın ən güclü dövlətlərindən birinə çevrilib. Son illər əldə olunan möhtəşəm uğurlar bir daha sübut edir ki, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi dövlətçilik strategiyası zamanın sınağından şərəflə çıxıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu siyasi kurs uğurla davam etdirilir, ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoyur, milli maraqlar qətiyyətlə təmin edilir.

Tarixin yaddaşında elə hadisələr var ki, onların əsl dəyəri illər keçdikcə daha aydın görünür. 1990-cı il iyulun 22-də Heydər Əliyevin Naxçıvana qayıdışı məhz belə taleyüklü hadisələrdəndir. Bu qayıdış təkcə böyük dövlət xadiminin doğma yurda dönüşü deyildi. Bu, milli iradənin yenidən dirçəlişi, dövlətçilik ideyasının xilası və Azərbaycanın gələcəyinə açılan yol idi.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Heydər Əliyevin xalqımıza əmanət etdiyi hərbi təhsil ocağı

## Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 55 yaşı tamam olur



**Gələcək generalların, qəhrəmanların, zabitlərin bir zamanlar kursant kimi təhsil aldığı Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yarandığı vaxtdan 55 il keçir. Yarım əsrdən çox fəaliyyət göstərən bu hərbi məktəbdə indiyə qədər minlərlə kursant təhsil alıb. Bu kursantlar liseyi bitirdikdən sonra keçmiş ittifaqın müxtəlif ali hərbi məktəblərində təhsillərini davam etdirərək zabit rütbəsi alıblar. Hazırda Silahlı Qüvvələrimizin sıralarında xidmət edən generalların, zabitlərin əksəriyyəti C.Naxçıvanski adına Hərbi Liseyin məzunlarıdır.**

C.Naxçıvanski adına Hərbi Liseyi "Heydər Əliyev" məktəbi də adlandırırlar. Bu, səbəbsiz deyil, çünki hazırda Azərbaycan Ordusu üçün savadlı, bilikli kadrlar hazırlanan hərbi məktəbi Ümummilli Lider Heydər Əliyev 1971-ci ildə böyük əziyyətlər bahasına yaratmışdır. Yaxın tariximizdən məlumdur ki, o illər həyata keçirilən məqsədyönlü siyasət azərbaycanlı gənclərin hərbi sahədə irəliləməsinə, general səviyyəsinə yüksəlməsinə süni əngəllər yaradırdı. O səbəbdən bu hərbi təhsil ocağının açılması respublikamız üçün mühüm hadisə idi.

Ulu Öndər Heydər Əliyev bu təşəbbüsü ilə həm də keçmiş sovetlərin "xalq düşməni" kimi qara siyahıya saldığı, saxta ittihamla ləkələdiyi general Cəmşid xan Naxçıvanskinin adını təmizə çıxardı. Liseyə onun adının verilməsi doğma vətənindən xeyli uzaqlarda sözün həqiqi mənasında şəhid edilmiş general C.Naxçıvanskini yenidən Azərbaycan xalqına qaytardı.

Bəs bu barədə tarixi sənədlər nə deyir? Sənədlərdə bildirilir ki, Azərbaycan Maarif Nazirliyi və Respublika Hərbi Komissarlığı Azərbaycan KP MK bürosunun 1971-ci il 29 aprel tarixli qərarını əsas götürərək hərbi təmayüllü internat məktəbinin açılması üçün 1971-ci il iyunun 16-da müraciət hazırlayır. Müraciət gecikdirilmədən müzakirə olunur və 20 iyul 1971-ci ildə "İxtisaslaşdırılmış internat məktəbinin yaradılması haqqında" Azərbaycan KP MK bürosu qərar qəbul edir. 1971-ci ilin noyabr ayında məktəbin açılışı olur. Heydər Əliyev bu təntənəli mərasimdə iştirak edir. Tarixi çıxışı zamanı yeni məktəbə diviziya komandiri general Cəmşid Naxçıvanskinin adının verildiyini bildirir.

Təbii ki, həmin dövr üçün bu, gözlənilməz qərar idi. Çünki Moskvadan əsən soyuq küləklər hərbi məktəbin yaradılmasına süni maneələr yaradırdı. Amma bütün çətinliklərə baxmayaraq, Ulu Öndər Heydər Əliyevin qətiyyəti və iradəsi sayəsində məqsədə nail olundu, C.Naxçıvanski adına Hərbi Lisey yaradıldı. Çox keçmədi ki, məktəb keçmiş ittifaqın ən nüfuzlu hərbi təhsil ocaqlarından birinə çevrildi. Hərbçi olmaq arzusu ilə yaşayan azərbaycanlı gənclər böyük həvəslə yeni yaradılmış təhsil ocağına üz tutdular. Bu gənclərin bir çoxu Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ordu quruculuğunda fəal iştirak etdilər.

Ümummilli Lider Heydər Əliyev bu liseyi yaratmaqla kifayətlənmədi, ona qayğı göstərdi və yaşatdı. Ulu Öndər hakimiyyətdə olduğu dövrlərdə tez-tez məktəbə gedər, kursantlarla söhbət edər, qayğıları ilə yaxından maraqlanardı. Heydər Əliyev çıxışlarının birində demişdir: "Mən Cəmşid Naxçıvanski adına Hərbi Məktəbi yaratmışam, onun fəaliyyətinə hərtərəfli qayğı göstərmişəm".

Ümummilli Lider xalqımızın təkidli tələbi ilə 1993-cü ilin iyun ayında hakimiyyətə qayıtdıqdan sonra Cəmşid Naxçıvanski adına Hərbi Liseyin həyatında böyük dəyişikliklər baş verdi. Ordumuzun gələcək zabitlərinin oxuduğu hərbi məktəbə daim diqqət və qayğı göstərən Heydər Əliyevin 1998-ci və 2002-ci illərdə imzaladığı sərəncamlarla Hərbi Liseyin yaradılmasının 25 və 30 illik yubileyləri dövlət səviyyəsində geniş qeyd olundu.

Ulu Öndər Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaranmasının 30 illik yubileyi münasibətilə keçirilən tədbirdə çıxış edərkən demişdir: "30 il bundan öncə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaranması və o vaxtdan ardıcıl fəaliyyət göstərməsi və bu gün öz iş nəticələrini nümayiş etdirməsi Azərbaycanın həyatında tarixi hadisədir. Bu, bizim bayramımızdır. Çünki Azərbaycanın tarixində heç vaxt belə bir hərbi təhsil müəssisəsi olmayıbdır. Bu, ağır bir dövrdə yaranıb, 30 il yaşayıb və bu gün də 30 illik yubileyini qeyd edir".

Azərbaycan Prezidenti Heydər Əliyevin 13 mart 1998-ci il tarixli sərəncamı və müdafiə nazirinin 9 aprel 1998-ci il tarixli əmri ilə C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı açılmışdır. Ondan sonra bu qədim diyarın hərbçi olmaq istəyən gənclərinin ölkənin paytaxtına gəlmələrinə ehtiyac qalmadı. Ordumuzun gələcək zabitləri olacaq gənclər Hərbi Liseyin Naxçıvandakı filialında təhsil aldılar. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əlyevin 27 fevral 2004-cü il tarixli sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı ləğv edilmiş və onun bazasında Heydər Əliyev adına Hərbi Lisey yaradılmışdır.

Arxada qalmış 55 il ərzində Cəmşid Naxçıvanski adına Hərbi Liseyi 14 mindən artıq məzun bitirmişdir. Onların çoxu bu gün daim gücünü, qüdrətini artıran Azərbaycan Ordusunun sıralarında xidmətlərini uğurla davam etdirir. Bu zabitlər həm Birinci və İkinci Qarabağ müharibələrində, həm də Aprel döyüşlərində böyük qəhrəmanlıqlar göstərmişlər. Döyüşlərdə göstərdikləri igidliklərə görə Hərbi Liseyin məzunları müxtəlif orden və medallarla təltif edilmişlər. Onlardan 11 nəfəri Azərbaycanın Milli Qəhrəmanı, 19 nəfər isə Vətən Müharibəsi Qəhrəmanı fəxri adlarına layiq görülmüşdür. Hərbi Liseyin məzunlarından 27 nəfər general, 1 nəfər admiral ali hərbi rütbəsinədək yüksəlmişdir. Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə C.Naxçıvanski adına Hərbi Liseyin 120 məzunu şəhid olmuşdur. Şəhidlərin ruhuna ehtiram əlaməti olaraq Hərbi Liseydə Şəhidlər muzeyi yaradılmışdır.

Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Heydər Əliyev Muzeyi də fəaliyyət göstərir. Kursantlar asudə və istirahət saatlarında muzeyə gələrək Ulu Öndərin keçdiyi şərəfli ömür yolu, Azərbaycanın müstəqilliyi və azadlığı naminə gördüyü işlərlə əyani tanış olurlar.

Bu gün Hərbi Lisey Azərbaycan Prezidenti İlham Əliyevin ordu quruculuğu istiqamətində həyata keçirdiyi islahatların, hərbi təhsil sahəsinə göstərdiyi qayğı və diqqətin sayəsində təkmilləşir, inkişaf edir. Liseyi bitirən savadlı, bilikli məzunların bacarığı və peşəkarlığı sayəsində isə Silahlı Qüvvələrimiz daha da güclənir.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*



İŞİMİZ, GÜZƏRANIMIZ

# Uzaq Çin "yaşıl enerji" gündəliyində Azərbaycana yaxın tərəfdaşdır

**Azərbaycan-Çin iqtisadi əlaqələrində bərpaolunan enerji sahəsində əməkdaşlıq özünəməxsus yer tutur. Bu əməkdaşlığın tarixi qısa olsa da, başlanmış işlər gələcək uğurlardan xəbər verir. 2025-ci il yanvarın 20-də Prezident İlham Əliyev Davosda Çinin CGTN telekanalına verdiyi müsahibədə bu sahədə atılan addımlardan da bəhs etmişdi.**

Dövlətimizin başçısı Azərbaycanın "yaşıl layihə"ləri barədə danışmış, onların reallaşmasının ölkənin enerji sahəsində bir inqilab olacağını bildirmiş və burada Çinin iştirakı məsələsinə toxunmuşdu: "Bu layihələrə sərmayə yatıran xarici şirkətlər olan investorlar, o cümlədən Azərbaycandan olan yerli şirkətlər Çin texnologiyasından istifadə edirlər. Günəş panelləri Çində istehsal olunur. İndi bizim heyətlərimiz enerjinin tədarükü imkanları üzərində işləyirlər və möhtəşəm uğur münasibətilə Çin istehsalçılarını təbrik edirəm. Çünki burada söhbət məhsulun keyfiyyəti və qiymətindən gedir. Heç kim bu rəqabəti apara bilmir".



Bu, böyük perspektivləri olan "yaşıl enerji" əməkdaşlığının yalnız bir istiqamətini əks etdirirdi. Bir qədər də geriyə dönərək xatırlayaq ki, 2024-cü ilin iyul ayında ŞƏT-in (Şanxay Əməkdaşlıq Təşkilatı) Astanada keçirilən 24-cü sammitində imzalanmış Azərbaycan-Çin strateji tərəfdaşlığının qurulmasına dair Birgə Bəyannamə ölkələrimizin qarşılıqlı maraq doğuran bütün sahələrdə əməkdaşlığının inkişafına geniş imkan yaratdı. 2025-ci ilin aprel ayında Prezident İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində imzalanan Birgə Bəyanat isə əlaqələrin daha da dərinləşməsi və şaxələnməsinə geniş yol açdı. Belə ki, "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın bəndlərindən birində tərəflər iki ölkənin enerji keçidini, dayanıqlı sosial-iqtisadi inkişafını təşviq edərək bərpaolunan enerji mənbələri sahəsində əməkdaşlığı fəal şəkildə inkişaf etdirməyə və təmiz enerji sahəsində qlobal tərəfdaşlığın formalaşmasını birgə irəlilətməyə hazır olduqlarını bildirdilər. Bununla da həmin vaxtadək artıq başlanmış olan "yaşıl enerji" əməkdaşlığının qarşısında daha gur "yaşıl işıq" yandırıldı.

Hazırda Azərbaycan-Çin "yaşıl enerji" əməkdaşlığı Prezident İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində bu sahəyə dair imzalanmış 6 sənəd üzrə şaxələnir. Energetika Nazirliyinin məlumatına görə, həmin sənədlər ümumilikdə 260 MVt gücündə günəş-elektrik stansiyaları, 100 MVt-lıq üzən günəş-elektrik stansiyası, 30 MVt gücündə batareya enerji saxlanc sistemi, dənizdə minimum 2 QVt gücündə külək-elektrik stansiyasının inşası, daha 2 MVt gücündə külək enerjisi layihəsinin inkişafı, eləcə də bərpaolunan enerji və elektrik enerji sisteminin planlaşdırılması üzrə əməkdaşlığı əhatə edir.

Azərbaycan hökuməti və "Universal Solar Azerbaijan" MMC arasında imzalanmış investisiya müqaviləsi Qobustan rayonunda 100 meqavat gücündə günəş-elektrik stansiyasının tikintisini və istismarını nəzərdə tutur. Stansiyanın bu ilin sentyabr ayında istifadəyə verilməsi gözlənilir. İnvestor Çinin "Universal International Holdings Limited" ("Universal Energy") şirkətidir.

Daha bir müqaviləyə əsasən, Xəzər dənizində külək enerjisi potensialının qiymətləndirilməsi, bu sahədə layihələrin planlaşdırılması və inşası üzrə əməkdaşlıq ediləcək. Bu, Energetika Nazirliyi ilə "China Energy Overseas Investment Co. Ltd." şirkəti arasında Azərbaycanda dənizdə külək enerjisi layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı imzalanmış icra müqaviləsidir. Burada mərhələli əsasda minimum 2 QVt gücündə dənizdə külək-elektrik stansiyasının qiymətləndirilməsi, inkişaf etdirilməsi, layihələndirilməsi, maliyyələşdirilməsi, mühəndisliyi, tikintisi, istismara verilməsi və texniki xidmət üzrə əməkdaşlıq nəzərdə tutulur.

Digər bir sənəd Energetika Nazirliyi, "China Datang Overseas Investment Co. Ltd" və "SOCAR Green" MMC arasında imzalanıb. Belə ki, Böyükşor gölündə 30 MVt gücündə batareya enerji saxlanc sistemi ilə 100 MVt gücündə üzən günəş-elektrik stansiyası layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı icra müqaviləsinə müvafiq olaraq yaradılacaq layihə şirkəti vasitəsilə texniki-iqtisadi əsaslandırma, layihələndirmə, maliyyələşdirmə, tikinti, istismar və texniki xidmət işləri həyata keçiriləcək.

Bunlardan başqa, Energetika Nazirliyi, "PowerChina Resources Limited" və "SOCAR Green" arasında 160 MVt gücündə günəş-elektrik stansiyası layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsinə dair imzalanmış icra müqaviləsi mübadilə edilib. Stansiyanın 2028-ci ildə istismara verilməsi planlaşdırılır və obyektdə illik təxminən 332 milyon kilovat-saat elektrik enerjisi istehsalı proqnozlaşdırılır. Bu isə ildə 73 milyon kubmetr həcmində təbii qaza qənaət edilməsi, atmosferə atılan karbon emissiyalarının 160 min ton azaldılması deməkdir. Layihə həmçinin gələcəkdə batareya enerji saxlanc sisteminin inteqrasiyası imkanlarını da nəzərdən keçirir.

Energetika Nazirliyi, "SOCAR Green", "China Datang Overseas Investment Co. Ltd" və "PowerChina Resources Limited" arasında imzalanan sənəd isə Xəzər dənizinin Azərbaycan sektorunda 2 QVt gücündə dənizdə külək enerjisi layihəsinin inkişafına dair Anlaşma Memorandumudur. "Bərpaolunan enerjinin inkişafı və elektrik enerji sisteminin planlaşdırılması"na dair Anlaşma Memorandumu Energetika Nazirliyi ilə Çinin Elektrik Enerjisinin Planlaşdırılması və Mühəndislik İnstitutu arasında imzalanıb. Memorandum 2028-ci ildən sonrakı dövr üzrə bərpaolunan enerji mənbələrinin şəbəkəyə inteqrasiyası ilə əlaqədar ötürücü şəbəkədə müvafiq araşdırmaların aparılmasını nəzərdə tutur. Hazırda bütün bu layihələr icrasının müxtəlif mərhələlərindədir.

Azərbaycan-Çin "yaşıl enerji" əməkdaşlığının bir qolu da işğaldan azad olunmuş ərazilərimizi əhatə edir. Bu ərazilərdə "yaşıl enerji" potensialının qiymətləndirilməsi və Çin sərmayələrinin cəlb edilməsi istiqamətində addımlar atılır. "China Energy Overseas Investment Co.", "PowerChina Resources Limited", "TBEA Co. Ltd" və digər qurumlarla "yaşıl enerji" potensialının qiymətləndirilməsi və günəş enerjisindən istifadə imkanları müzakirə olunur.

Ağdamda və digər azad olunmuş ərazilərdə Çinin günəş enerjisi avadanlıqları və infrastrukturu tətbiq edilir. "Dongfang Electronics Corporation" kimi şirkətlər bölgədəki şəbəkə quruculuğu işləri ilə tanış olublar.

Bu ərazilərdə görüləcək bir sıra işlər Energetika Nazirliyi ilə Çin investorları arasında imzalanmış sənədlərdə artıq öz əksini tapıb.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Azərbaycan qlobal nəqliyyat hesabatının hazırlanmasında fəal iştirak edir

**Beynəlxalq Nəqliyyat Forumunun (BNF) Nəqliyyat Tədqiqat Komitəsinin iclasında qurumun əsas analitik sənədlərindən olan "Transport Outlook 2027" hesabatının hazırlanması məsələsi müzakirə edilib.**

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən (RİNN) bildirilib ki, BNF Katibliyi bu məqsədlə yaradılan İşçi qrupun fəaliyyətini yüksək qiymətləndirib və prosesə mühüm töhfə verən 12 ölkəyə, o cümlədən Azərbaycana təşəkkür edib. Qeyd edək ki, Azərbaycan İşçi qrupda Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə təmsil olunur. Nazirlik beynəlxalq nəqliyyat siyasəti, dayanıqlı mobillik, rəqəmsallaşma və gələcəyin nəqliyyat tendensiyaları ilə bağlı müzakirələrdə fəal iştirak edir.

"Transport Outlook" BNF-nin dünya nəqliyyatındakı əsas meyilləri, uzunmüddətli inkişaf ssenarilərini və siyasət tövsiyələrini əks etdirən ən nüfuzlu hesabatlarından biridir. Bu sənəd nəqliyyat siyasətinin hazırlanmasında mühüm istinad mənbəyi hesab olunur və BNF-yə üzv ölkələrin ekspertlərinin birgə əməkdaşlığı ilə hazırlanır.

# Masallıda kənd təsərrüfatı məhsullarının istehsalı artıb

**Rayon statistika idarəsindən verilən məlumatda bildirilir ki, bu ilin 6 ayında kənd və meşə təsərrüfatı, eləcə də balıqçılıq sahəsi üzrə məhsul buraxılışının ümumi dəyəri 2025-ci ilin eyni dövrünə nisbətən 6,7 faiz artaraq 175 milyon 589,1 min manat olmuşdur.**




Onun 108 milyon 847,5 min manatı (62 faizi) bitkiçilik, 66 milyon 741,6 min manatı (38 faizi) heyvandarlıq məhsullarının payına düşmüşdür.

Rayon üzrə əkin sahələrinin 13 min 392 hektarı (72,7 faizi) dənli və dənli-paxlalı bitkilər, 90 hektarı (0,5 faizi) texniki bitkilər, 3 min 716,3 hektarı (20,2 faizi) kartof, tərəvəz və bostan bitkiləri, 1218,5 hektarı (6,6 faizi) yemlik bitkilər olmuşdur.

Cari ilin iyul ayının 1-nə kimi tarlalardan qarğıdalı da daxil olmaqla 30 min 475,8 ton və ya keçən ilin müvafiq dövrünə nisbətən 20 faiz çox dənli və dənli-paxlalı bitkilər, 24 min 780 ton (54,5 faiz çox) kartof, 40 min 38,5 ton (0,7 faiz az) tərəvəz, 2 min 297 ton (5,2 faiz çox) bostan məhsulları, 2 min 448 ton (21,6 faiz çox) meyvə və giləmeyvə, 27,8 ton (6,9 faiz çox) yaşıl çay yarpağı toplanmışdır.

6 ay ərzində rayon üzrə diri çəkidə 3 min 632,4 ton ət, 26 min 264,2 ton süd, 36 milyon 790 min ədəd yumurta və 144,3 ton yun istehsal edilmişdir və 2025-ci ilin müvafiq dövrünə nisbətən ət istehsalı 0,6 ton, yumurta istehsalı min ədəd artmış, süd istehsalı 2,6 ton azalmış, yun istehsalı eyni qalmışdır. İyul ayının 1-i vəziyyətinə rayonda 74 min baş qaramal (ondan 37,2 min baş inək və camışlar), 96,3 min baş qoyun və keçi olmuşdur. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə qaramalın sayı 65, inək və camışların 20, qoyun və keçilərin sayı 108 baş artmışdır.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinə yeni benefisiarlar qəbul olunub

## Mərkəz və filiallarında hazırda həssas qruplara aid 337 benefisiara xidmətlər göstərilir

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində növbəti benefisiar qəbulu keçirilib.**



Mərkəzin Qiymətləndirmə Komissiyası tərəfindən həssas əhali qruplarına aid 20 vətəndaşın yaradıcı potensialı qiymətləndirilib və onlardan 16-sı müxtəlif istiqamətlər üzrə təlimlərə cəlb olunub.

Yeni qəbul edilən şəxslər floristika, bədii oyma, xalçaçılıq, bədii tikmə, fotoqrafiya, təsviri incəsənət, kulinariya, rəqs, kapoeyra və musiqi istiqamətləri üzrə yaradıcılıq bacarıqlarını inkişaf etdirmək imkanı qazanıblar.

Bununla da mərkəz və onun regional filiallarının xidmətlərindən hazırda yararlanan benefisiarların sayı 337 nəfərə çatıb. Ümumilikdə isə mərkəz fəaliyyətə başladığı vaxtdan etibarən 1031 vətəndaş buradakı xidmətlərdən faydalanıb.

Qeyd edək ki, mərkəzdə əlilliyi olan şəxslərin, şəhid ailəsi üzvlərinin, müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər və onların övladlarının, valideyn himayəsindən məhrum olmuş uşaqların, eləcə də aztəminatlı ailələrin üzvlərinin yaradıcılıq qabiliyyətinin üzə çıxarılması və inkişafına dəstək göstərilir.

# Azərbaycanın KOBİA modeli: bir ideyanın bir çox üstünlüyü

**Azərbaycan iqtisadiyyatında kiçik və orta biznesin inkişafı neftdənkənar sahənin genişlənməsi, məşğulluğun artırılması və sahibkarlıq mühitinin gücləndirilməsi baxımından əhəmiyyətlidir. Bu istiqamətdə həyata keçirilən dövlət siyasətinin icraçı qurumlarından biri Kiçik və Orta Biznesin İnkişafı Agentliyidir.**

Agentlik sahibkarlara informasiya və məsləhət xidmətləri göstərmək, biznes layihələrinin inkişafına dəstək vermək, dövlət və özəl sektor arasında əməkdaşlığı gücləndirmək, eləcə də innovativ təşəbbüsləri təşviq etməklə ölkədə rəqabətqabiliyyətli biznes mühitinin formalaşmasına zəmin yaradır. KOBİA həmçinin yeni bizneslərin yaranmasına, mövcud müəssisələrin dayanıqlı inkişafına, ixrac potensialının artırılmasına və regionlarda sahibkarlığın genişlənməsinə xidmət edir. Bu baxımdan agentliyin həyata keçirdiyi proqramlar və göstərdiyi xidmətlər Azərbaycanda kiçik və orta biznes ekosisteminin inkişafında mühüm rol oynayır. Məlumdur ki, hazırda güclü iqtisadiyyat iri sənaye müəssisələri ilə yanaşı, həm də çevik, innovativ, rəqabətqabiliyyətli kiçik və orta biznes subyektləri ilə formalaşır. Azərbaycan son illər bu istiqamətdə ardıcıl islahatlar keçirərək, sahibkarlığın inkişafını dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevirib.

Həmin siyasətin həyata keçirilməsində KOBİA xüsusi yer tutur. Agentlik fəaliyyətə başladığı gündən etibarən sahibkarların dövlət qurumları ilə əlaqələrinin asanlaşdırılması, biznes təşəbbüslərinin dəstəklənməsi, hüquqi və məsləhət xidmətlərinin göstərilməsi, innovativ layihələrin tətbiqinin genişləndirilməsi və investisiya mühitinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atıb. KOBİA qısa müddətdə sahibkarların etibarlı tərəfdaşına çevrilərək dövlət dəstəyi mexanizmlərinin daha əlçatan və səmərəli tətbiqinə dəstək olub.

KOBİA-nın fəaliyyətinin real nəticələri aydın şəkildə sahibkarlara göstərilən xidmətlərin statistik göstəricilərində əks olunur. Cari ilin birinci yarısında KOB evlərinin fəaliyyəti bu baxımdan diqqətçəkən rəqəmlərlə yadda qalıb. KOBİA-nın məlumatına görə, 2026-cı ilin yanvar-iyun aylarında KOB evləri sahibkarlara 312 mindən çox xidmət göstərərək, biznes ictimaiyyətinin əsas dəstək ünvanlarından biri olduğunu təsdiqləyib. Göstərilən xidmətlərin böyük hissəsi Bakı və Yevlax KOB evlərinin payına düşsə də, Gəncə, Şuşa və Xaçmaz KOB evləri, həmçinin Xudat xidmət mərkəzi də sahibkarlara operativ xidmət göstərilməsi istiqamətində fəal rol oynayıb. Bu xidmətlərin 272 minə yaxını dövlət qurumları (G2B), 40 mindən çoxu isə biznes qurumları (B2B) tərəfindən təqdim edilib.

Bu gün Azərbaycanda minlərlə sahibkar öz biznesini qurarkən və ya inkişaf etdirərkən KOBİA-nın təqdim etdiyi xidmətlərdən faydalanır. Agentliyin fəaliyyəti təkcə maliyyə və təşkilati dəstəklə məhdudlaşmır. O, sahibkarlıq düşüncəsinin formalaşmasına, gənclərin biznesə marağının artırılmasına, qadın sahibkarlığının inkşafına dəstək verilməsi və regionlarda iqtisadi fəallığın genişlənməsinə də təsir göstərir. Bu mənada KOBİA ölkənin iqtisadi inkişaf strategiyasında sahibkarla dövlət arasında etibarlı körpü rolunu oynayan mühüm dövlət mexanizmi kimi çıxış edir.

KOBİA

Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

Təbii ki, KOBİA-nın fəaliyyəti təkcə statistik göstəricilər və həyata keçirilən layihələrdən ibarət deyil. Qurum minlərlə insanın reallaşan biznes ideyaları, yaradılan yeni müəssisələr, açılan iş yerləri və güclənən sahibkarlıq mühiti ilə real nəticələri ortaya qoyur. Azərbaycanın iqtisadi inkişaf modelində özəl sektorun rolunun getdikcə artdığı bir dövrdə agentliyin fəaliyyəti həm bu günün, həm də gələcəyin iqtisadi prioritetləri sırasında xüsusi əhəmiyyət kəsb edir. Onun həyata keçirdiyi layihələr göstərir ki, sahibkarlığa verilən dəstək iqtisadi göstəricilərin yaxşılaşmasına və cəmiyyətin sosial rifahının yüksəlməsinə xidmət edir. Agentliyin təşəbbüsləri regionlarda biznes fəallığının artmasına, yeni istehsal və xidmət sahələrinin formalaşmasına, yerli məhsulların rəqabət qabiliyyətinin yüksəlməsinə kömək edir. Bu isə öz növbəsində neftdənkənar sahənin inkişafını sürətləndirir, iqtisadiyyatın şaxələndirilməsinə və dayanıqlı inkişaf hədəflərinə nail olunmasına əlavə imkanlar yaradır.

KOBİA-nın fəaliyyətinin mühüm istiqamətlərindən biri də Azərbaycanın uğurlu sahibkarlıq dəstəyi modelinin beynəlxalq müstəvidə tanıdılması və qabaqcıl təcrübələrin qarşılıqlı mübadiləsinin təmin edilməsidir. Son illər formalaşdırılan KOB evi modeli xarici tərəfdaşların diqqətini cəlb edərək, sahibkarlara xidmətlərin vahid məkanda göstərilməsi baxımından nümunəvi yanaşma kimi təqdim olunur. KOBİA-nın məlumatına görə, bu istiqamətdə həyata keçirilən tədbirlər çərçivəsində 2026-cı ilin ilk yarısında bir sıra ölkələrin və beynəlxalq təşkilatların nümayəndə heyətləri Azərbaycanda fəaliyyət göstərən KOB evləri ilə tanış olublar. Ruanda, Qırğızıstan, Qazaxıstan, Türkiyə, Asiya İnkişaf Bankı (AİB), Afrika Biznes Şurası və digər qurumların nümayəndələrinə KOB evi modelinin fəaliyyəti, dövlət və özəl sektor xidmətlərinin vahid platformada təşkili barədə ətraflı məlumat verilib, bu təcrübənin digər ölkələrdə tətbiqi imkanları ilə bağlı fikir mübadiləsi aparılıb.

KOBİA beynəlxalq əməkdaşlığın genişləndirilməsi ilə yanaşı, sahibkarlıq düşüncəsinin gənc nəsil arasında formalaşdırılmasına da xüsusi diqqət yetirir. Bu məqsədlə ali təhsil müəssisələri ilə əməkdaşlıq çərçivəsində tələbələrin biznes mühiti ilə yaxından tanışlığı, nəzəri biliklərinin praktiki təcrübə ilə tamamlanması istiqamətində tədbirlər həyata keçirilir. Azərbaycan Texnologiya Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti və digər təhsil müəssisələrinin nümayəndələri KOB evlərini ziyarət edərək burada yaradılan imkanlarla tanış olublar. Görüşlər zamanı gənclərə KOB evlərinin fəaliyyəti, sahibkarlara göstərilən xidmətlər, biznesə başlama yolları, dövlət dəstəyi mexanizmləri və yeni təşəbbüslərin reallaşdırılması imkanları barədə məlumat verilib. Bu cür görüşlər gələcək sahibkarların formalaşmasında, onların biznes ekosistemi haqqında daha geniş təsəvvür əldə etməsində əsaslı rol oynayır.

İndi KOBİA öz qapılarını xarici ölkələrin, beynəlxalq təşkilatların nümayəndələrinə açan və sahibkarlara dəstək göstərən qurum kimi, həm də biznes təşəbbüslərini hərəkətə gətirən, yeni ideyaların reallaşmasına imkan yaradan bir platformadır. Bu zamana qədər görülən işlər onu deməyə əminlik yaradır ki, qarşıdakı dövrdə də kiçik və orta biznesin iqtisadiyyatdakı rolunun xeyli dərəcədə artacağı, KOBİA-nın isə bu prosesdə sahibkarların etibarlı tərəfdaşı kimi fəaliyyətini davam etdirəcəyi gözlənilir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Masallıda Tovuz döyüşləri şəhidi mayor Anar Novruzovun anım günü qeyd olunub

**Anar Novruzov 1976-ci il mayın 12-də Ərkivanda dünyaya göz açıb. 10 uşaqlı ailədə böyüyüb. Ömrünü, taleyini yurdun müdafiəsinə - hərbi işə bağlayıb. 44 illik ömrünün 26 ilini bu xidmətə sərf edib.**



Bir çox döyüşdə, o cümlədən Aprel döyüşlərində fərqlənib, təltif olunub. Tovuz döyüşü baş verən zaman xəstə olduğu halda, müalicəsini yarımçıq qoyaraq döyüşə atılıb. Kəşfiyyatçı idi, ona vətənin ehtiyacı var idi. Dostu Polad Həşimovun çağırışı ilə döyüşə qatılıb. Bu onların son döyüşü olub.

Anar Novruzov dünyaya göz açdığı Ərkivanda torpağa tapşırılıb. Həyat yoldaşı Nailə xanım, qızı Firuzə, oğlu Nihad hər an onu öz yanlarında hiss edirlər. "Özü olmasa da, ruhu bizimlədir" deyir qızı Firuzə. O, atasından sonra universitet bitirib. Tarix müəllimidir. Oğlu Nihad isə hərbi həkim olmaq arzusundadır.

Masallıda şəhid Anar Novruzovun xatirəsi həmişə əziz tutulur. Ümumiyyətlə, rayonda şəhid ailələri, müharibə əlilləri və iştirakçıları daim diqqətdə saxlanılır, problemlərinin həlli istiqamətində operativ addımlar atılır.

Bu günlər rayon rəhbərliyi, ictimaiyyətin nümayəndələri, şəhid ailələri və qəsəbə sakinləri Ərkivan qəsəbəsində Tovuz döyüşləri şəhidi mayor, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenli Anar Novruzovun anım günü ilə əlaqədar məzarını ziyarət etmişlər.

Şəhidin ailə üzvləri göstərilən diqqətə görə ziyarətə gələnlərə minnətdarlıqlarını bildirmişlər.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

# London meri Sadiq Xan lord olacaq

**Böyük Britaniya paytaxtının meri Sadiq Xan istefa verən Baş nazir Kir Starmerin namizədliyi ilə Lordlar Palatasının üzvü olacaq. Per, yəni aristokrat titulları Kral tərəfindən Baş nazirin tövsiyəsi ilə verilir.**



Artıq cəngavərlik tituluna sahib olan leyborist millət vəkili Xan gələcək 26 perdən biridir. Hökumət perlərin siyahısını dərc edib və qeyd olunub ki, Kral III Çarlz "titulları vermək niyyətini bildirib".

Starmer iyun ayının sonunda hakim Leyborist Partiyasının lideri vəzifəsindən istefa verib. Endi Börnhem partiyanın növbəti lideri roluna alternativsiz namizəddir və onun bu siyasi posta seçiləcəyi şübhəsizdir. Bundan sonra Starmerin bazar ertəsi Kraldan istefasını istəməsi və monarxın Börnhemə hökumət qurmağı tapşırması gözlənilir.

Lordlar Palatasına üzvlük Xana rəsmi olaraq hökumət vəzifələrini tutmağa imkan verəcək, baxmayaraq ki, onun belə bir istəyi yoxdur. Bu barədə BBC məlumat verib.

Gələcək 26 lord və ledidən 16-sı leyboristlər olsa da, siyahıda 5 liberal demokrat, 3 Mühafizəkar və 2 müstəqil (keçmiş yüksəkvəzifəli dövlət qulluqçusu və təqaüddə olan yüksəkvəzifəli hakim) üzv də yer alıb.

Sadiq Xan ilk dəfə 2016-cı ildə London meri seçilib və o vaxtdan bəri iki dəfə yenidən seçilib. Hazırda o, üçüncü müddətdədir ki, merdir. Bildirilir ki, Xan 2028-ci ildə dördüncü müddətə namizəd olub-olmayacağına hələ qərar verməyib.

Hökumət mənbəyi BBC-yə müsahibəsində Xanı "Londonu daha yaxşıya doğru dəyişdirən parlaq bir mer" adlandırıb. O, merin nailiyyətlərini sadalayaraq bildirib ki, "Sadiq Xan zorakı cinayətləri rekord həddə endirib, paytaxtın havasını təmizləyib, Elizabet Xəttini işə salıb və bələdiyyə mənzil tikintisini yenidən başlayıb".

Elizabeth Xətti Londonun ən yeni metrostansiyasıdır və şəhər mərkəzini "Hitrou" Hava limanı və Redinq şəhəri ilə birləşdirir.

*R.CƏFƏROV,*
*"Azərbaycan"*

# Ermənistan vətəndaşlarının şikayətləri üzrə apellyasiya məhkəməsində təqsirləndirilən şəxslərin çıxışları başa çatıb

İyulun 17-də Bakı Apellyasiya Məhkəməsində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə və digər çoxsaylı cinayətlərə görə Bakı Hərbi Məhkəməsi tərəfindən barələrində ittiham hökmü çıxarılmış Ermənistan Respublikası vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin apellyasiya şikayətləri üzrə məhkəmə baxışı davam etdirilib.





AZƏRTAC xəbər verir ki, Bakı Apellyasiya Məhkəməsinin hakimləri Elmar Rəhimovun sədrliyi, Emin Mehdiyev və Mehriban Qarayevanın (ehtiyat hakim Əli Məmmədov) iştirakı ilə keçirilən məhkəmə iclasında barələrində cinayət işi üzrə apellyasiya icraatı aparılan şəxslərin hər biri bildikləri dillərdə - erməni və rus dillərində tərcüməçi, habelə müdafiələrinin təmin olunması məqsədilə vəkillərlə təmin edilib.

Məhkəmə iclasında zərərçəkmiş şəxslərin nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar - Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Abbas Abbaslı, həmin idarənin şöbə prokurorları Anar Ələkbərov və Sevinc Qasımova iştirak ediblər.

Əvvəlcə təqsirləndirilən Madat Babayanın müdafiəçisi çıxış edib. O, məhkəmədən 2026-cı il 5 fevral tarixli hökmün ləğv edilməsini, hüquqlarını qoruduğu təqsirləndirilən şəxs barəsində bəraət hökmünün çıxarılmasını xahiş edib.

Ardınca çıxış edən təqsirləndirilən Madat Babayan müdafiəçisinin mövqeyi ilə razı olduğunu və özünü təqsirli hesab etmədiyini deyib.

Daha sonra söz təqsirləndirilən Arayik Harutyunyanın müdafiəçisinə verilib. Müdafiə tərəfi apellyasiya şikayəti çərçivəsində öz arqumentlərini məhkəmənin diqqətinə çatdırıb.

Bundan sonra zərərçəkmiş şəxslərin nümayəndələri - Şaiq Hüseynov, Arzu Cavadov, Alı Əhmədov və Elmira İsmayılova çıxış ediblər.

Onlar Bakı Hərbi Məhkəməsinin 2026-cı il 5 fevral tarixli hökmünün qanuni və əsaslı olduğunu, məhkəmə istintaqı zamanı təqdim edilmiş foto, video və digər sübutlarla təqsirləndirilən şəxslərə qarşı irəli sürülmüş ittihamların tam təsdiqləndiyini bildiriblər. Nümayəndələr apellyasiya şikayətlərinin əsassız olduğunu vurğulayaraq, hökmün dəyişdirilmədən qüvvədə saxlanılmasını məhkəmədən xahiş ediblər.

Bununla təqsirləndirilən şəxslərin, onların müdafiəçilərinin və zərərçəkmiş şəxslərin nümayəndələrinin çıxışları başa çatıb.

Sonra məhkəmə iclasında müdafiə tərəfi, o cümlədən Davit İşxanyan, Levon Mnatsakanyan və David Manukyan vəsatətlər təqdim edib.

Verilmiş vəsatətlərə dövlət ittihamını müdafiə edən prokuror, Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Abbas Abbaslı münasibət bildirib.

Vəsatətlərə baxılması üçün məhkəmədə fasilə elan olunub.

Fasilədən sonra məhkəmə davam etdirilib və qərarlar elan olunub. Qərarlara əsasən vəsatətlər qismən təmin olunub.

Məhkəmənin növbəti iclası iyulun 21-də keçiriləcək.

Xatırladaq ki, Bakı Hərbi Məhkəməsinin 2026-cı il 5 fevral tarixli hökmünə əsasən, Arayik Harutyunyan, Levon Mnatsakanyan, David Manukyan, Davit İşxanyan və David Babayan ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum ediliblər. Arkadi Qukasyan və Bako Sahakyan 20 il, Madat Babayan və Melikset Paşayan 19 il, Qarik Martirosyan 18 il, Davit Allahverdiyan və Levon Balayan 16 il, Vasili Beqlaryan, Qurgen Stepanyan və Erik Qazaryan isə 15 il müddətinə azadlıqdan məhrum ediliblər.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
№ 125 (10145) 17 iyul 2026-cı il CÜMƏ
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR
"Siz həqiqətən də Sülh İnsanısınız"
Prezident İlham Əliyev ABŞ Prezidenti Donald Trampa təşəkkür edib
Azərbaycan müstəqil və suveren Fələstin dövlətinin yaradılmasını dəstəkləyib
Prezident İlham Əliyev Fələstinin Baş nazirini qəbul edib
Yüksək etimad nümunəsi
ABŞ Prezidenti Donald Trampın Prezident İlham Əliyevin sözlərini paylaşması Azərbaycan liderinin qlobal nüfuzunun bariz göstəricisidir
Azərbaycanın orta güc reallığı
Müstəqil xarici siyasət və regional liderlik ölkəmizin söz sahibinə çevrilməsini, artan nüfuzunu şərtləndirən əsas amillərdir
"John Deere" şirkəti ölkəmizlə əməkdaşlığı genişləndirməkdə maraqlıdır
Prezident İlham Əliyev "John Deere" şirkətinin nümayəndə heyətini qəbul edib
"Bakı ilə Bratislava arasında münasibətlər strateji tərəfdaşlıq məzmunu qazanıb"
Ortaq tarixdən strateji birliyə:
Azərbaycan-Mərkəzi Asiya ölkələri əməkdaşlığının yeni dövrü
azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Bilmək istəyirəm

***- Marketə girərkən çantanı mühafizəçiyə və ya saxlanca vermək məcburidirmi? Verməsəm, məni içəri buraxmamaq səlahiyyətləri varmı?***

***Pərvanə RZAYEVA,***
***Sumqayıt şəhəri***

- Sualınıza cavab olaraq bildiririk ki, marketə daxil olarkən çantanızı mühafizəçiyə və ya saxlanc kamerasına (kassaya, şkafa) vermək məcburi deyil. Eyni zamanda çantanızı təhvil verməmədiyiniz əsası ilə sizi içəri buraxmamağa market rəhbərliyinin və ya mühafizəçinin hüquqi səlahiyyəti yoxdur.

Qanunvericiliyə nəzər yetirsək müəyyən edərik ki, fiziki və hüquqi şəxslər müqavilə bağlamaqda azaddırlar və onları hər hansı bir müqaviləni bağlamağa məcbur etmək yolverilməzdir. Bu hal eyni zamanda müqavilə azadlığı prinsipinə ziddir.

Nəzərə alın ki, çantanızı saxlanca qoyduqda marketlə sizin aranızda mahiyyət etibarilə pulsuz saxlanc müqaviləsi bağlanmış olur. Qanunvericilik hər hansı bir şəxsi bu müqaviləni bağlamağa məcbur edə bilməz. Əgər siz əşyanızın qorunmasını marketə etibar etmək istəmirsinizsə, bu sizin tam hüququnuzdur.

Bundan başqa, marketlər və supermarketlər şəbəkəsi pərakəndə satış fəaliyyəti ilə məşğul olduqları üçün fəaliyyətləri kütləvi müqavilə xarakteri daşıyır. Kütləvi müqaviləyə əsasən, sahibkarlıq subyekti müraciət edən hər bir şəxslə müqavilə bağlamaq (yəni malı satmaq, xidmət göstərmək) öhdəliyi daşıyır. Market daxili qaydalarını bəhanə edərək müştərilər arasında fərq qoya bilməz və əsassız olaraq xidmət göstərməkdən (şəxsi içəri buraxmaqdan) imtina edə bilməz. Unutmaq olmaz ki, çantanı saxlanca verməmək daxili qaydalara zidd olsa belə bu qayda qanundan üstün ola bilməz.

Həmçinin marketin mühafizəçisi cinayət-prosessual mənada sizə qarşı məcburi şəxsi axtarış apara bilməz və ya əmlakınızı müsadirə edib saxlanca qoymağınızı tələb edə bilməz. Onun sizi içəri buraxmamaq hüququ yalnız ictimai qaydanı kobud şəkildə pozduqda, digər şəxslərin həyat və sağlamlığına aşkar təhlükə yaratdıqda və ya obyektə qanunsuz daxil olmağa cəhd etdikdə yarana bilər. Unutmaq olmaz ki, şəxsi çanta ilə marketə girmək ictimai qayda pozuntusu deyil.

Buna baxmayaraq, belə vəziyyətin yaranması gözləniləndir və bu halla qarşılaşanda nə etmək lazımdır? Əgər mühafizəçi sizi çantanızla içəri buraxmaqdan imtina edərsə, müvafiq hüquqi addımları ata bilərsiniz. Öncə mühafizəçidən hansı qanunvericilik aktına əsasən kütləvi müqavilə obyektinə girişinizin məhdudlaşdırıldığını soruşun. Daha sonra baş vermiş hadisəni marketin şikayətlər üçün nəzərdə tutulmuş rəsmi jurnalında (qeydiyyat sənədində) ətraflı şəkildə qeyd edin. Bu, gələcəkdə mümkün mübahisələr üçün rəsmi sübut rolunu oynayır. Əgər belə bir jurnal mövcud deyilsə, o zaman hadisə barədə marketin rəhbərliyinə məlumat verin.

Müraciətiniz müsbət mənada öz həllini tapmazsa, o zaman qarşılaşdığınız hadisə ilə bağlı (istehlakçı hüquqlarının pozulması ilə bağlı) müvafiq quruma şikayət ünvanlaya bilərsiniz.

İnzibati orqana müraciətlə birlikdə, yaxud ondan sonra məhkəməyə müraciət etməyiniz tövsiyə olunur. Şikayətinizin əsaslı olması üçün isə müvafiq sübutlar zəruridir (məsələn, hadisə ilə bağlı videogörüntü və s.).

**Sualı cavablandırdı:**
**Paşa SƏFƏROV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

# İdman

## UEFA Avropa Liqası: "Qarabağ" II təsnifat mərhələsində bolqarlarla görüşəcək



**UEFA Avropa Liqasının I təsnifat raundunda "Vestri" (İslandiya) komandasını üstələyən "Qarabağ" növbəti mərhələyə adlayıb.**

İslandiyanın paytaxtı Reykyavikdəki "Trouttarvedlür" stadionunda keçirilən cavab matçı Ağdam təmsilçisinin 3:0 hesablı qələbəsi ilə yekunlaşıb. "Qarabağ"ın heyətində 5-ci dəqiqədə Cali Muaddib, Pedro Bikalyo (29) və Zakariya Savo (57) fərqləniblər. Bir həftə əvvəl Bakıda keçirilən ilk görüşdə də rəqibini 3 cavabsız qolla məğlub edən Azərbaycan klubu II təsnifat mərhələsinə vəsiqə qazanıb.

"Qarabağ"ın növbəti rəqibi MOİK (Sofiya) klubu olacaq. Tərəflər arasında ilk qarşılaşma iyulun 23-də Bakıda, cavab oyunu isə bir həftə sonra Bolqarıstanda keçiriləcək.

## "Neftçi"nin UEFA Konfrans Liqasında rəqibi bəlli oldu

**"Neftçi" komandasının UEFA Konfrans Liqasının 2026/2027 mövsümünün II təsnifat mərhələsindəki rəqibi müəyyənləşib. Bu, məşhur "Dinamo" (Minsk) klubudur.**



Belarus təmsilçisi I təsnifat mərhələsində Şimali Makedoniyanın "Sileks" komandasını mübarizədən kənarlaşdırıb. İlk oyunda 0:1 hesabı ilə məğlub olan "Dinamo" cavab görüşündə 1:0 hesablı qələbə qazanaraq qarşılaşmanı əlavə vaxta daşıyıb. Penaltilər seriyasında isə belaruslar rəqibini 6:5 hesabı ilə üstələyərək növbəti mərhələyə yüksəlib.

UEFA Konfrans Liqasının II təsnifat mərhələsinin matçları iyulun 23-də və 30-da keçiriləcək. İlk oyun Bakıda olacaq və 20:00-da start götürəcək.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi iş yoldaşları Ramil Ağazadəyə qardaşı
**XALİD AĞAZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3201
Sifariş 900

Qiyməti 60 qəpik